RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 36 (8915) CÜMƏ AXŞAMI, 17 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Zəfərdən intibaha



**Azərbaycanın yüksəlişi ilə paralellik təşkil edərək ölkəmizin hər yerində vüsətlə həyata keçirilən tikinti-quruculuq və abadlıq işləri tarixi-mədəni abidələrimizdən, dini ocaqlarımızdan da yan ötməyib.**

Prezident İlham Əliyevin təşəbbüsü və qayğısı, Heydər Əliyev Fondunun proqram və layihələri ilə bir çox tarixi mədəni abidələr, ziyarətgahlar qısa müddətdə yüksək səviyyədə təmir və bərpa edilir. Bütün bunlar ölkə rəhbərliyinin tarixi və milli-mənəvi dəyərlərimizə ehtiramının bariz nümunəsi kimi cəmiyyətin bütün təbəqələrinin dərin rəğbəti ilə qarşılanır.

### Vandallığa və vəhşiliyə məruz qalan abidələr

Tariximizə və dəyərlərimizə yüksək ehtiram nümunəsi torpaqlarımızın işğaldan azad olunmasından sonra yeni müstəvidə göstərilməyə başladı. Öncə onu qeyd edək ki, Azərbaycan ictimaiyyəti Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Qarabağ və Şərqi Zəngəzura səfərləri zamanı ermənilər tərəfindən dağıdılmış, vandallığa məruz qalmış tarixi və dini abidələrimizi ürəkağrısı ilə ziyarət etdiklərinin şahidi oldu. Bütövlükdə isə bu abidələrlə tanışlıq və onların ziyarət olunması ölkə rəhbərliyinin Qarabağ və Şərqi Zəngəzura səfər qrafiklərində daim yer alıb. İşğaldan azad olunmuş ərazilərə ilk səfərləri zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın tarixində və mənəviyyatında dərin iz buraxan Xudafərin körpüsünə getmişdilər.

Bundan bir həftə sonra, 2020-ci il noyabrın 23-də Ağdam səfəri zamanı isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam məscidini ziyarət etdilər.

*Ardı 3-cü səh.*

## Andjey Duda İlham Əliyevə zəng edib



**Fevralın 16-da Polşa Respublikasının Prezidenti Andjey Duda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Söhbət zamanı Polşa Prezidenti 2019-cu ildə Azərbaycana rəsmi səfərini məmnunluqla xatırlatdı.

Prezident İlham Əliyev də bu səfərin uğurlu olduğunu, ikitərəfli əlaqələrimizin inkişafına töhfə verdiyini vurğuladı.

Telefon danışığı zamanı Azərbaycan ilə Polşa arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparıldı.

Polşa Prezidenti ATƏT-in fəaliyyətdə olan sədri kimi Mərkəzi və Şərqi Avropa regionunda təhlükəsizlik məsələlərinə toxundu və ATƏT çərçivəsində atılan addımların gərginliyin azaldılmasına xidmət edəcəyini vurğuladı.

Söhbət əsnasında Ukrayna ətrafında cərəyan edən hadisələrə dair fikir mübadiləsi də aparıldı.

***Prezidentin Mətbuat Xidməti***

## NATO-dan İlham Əliyevə tam dəstək

### Beynəlxalq təşkilat Azərbaycan Prezidentinin enerji siyasətini birmənalı təqdir edir

**Müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələrin reallaşdırıcısı kimi qlobal təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə töhfəsini verən Azərbaycan bu gün dünyada regional güc kimi qəbul edilməkdədir.**

Azərbaycan region ölkələri, dünyanın aparıcı dövlətləri və üzvü olduğu beynəlxalq təşkilatlarla qarşılıqlı etimada əsaslanan münasibətlərini inkişaf etdirməklə yanaşı, xarici siyasətin yeni vektorlarına uyğun olaraq fəal diplomatiya nümayiş etdirir. Müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən NATO, BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İƏT, MDB və digər nüfuzlu qurumlarla fəal əməkdaşlıq edən Azərbaycan həm də öz milli maraqlarını gerçəkləşdirir. Rəsmi Bakının əməkdaşlığın inkişafına böyük önəm verdiyi nüfuzlu təşkilatlardan biri də NATO-dur.

### 30 illik uğurlu əməkdaşlıq

Azərbaycanla NATO arasındakı ilk təmasların tarixi ölkəmizin bir sıra Mərkəzi və Şərqi Avropa dövlətləri ilə birlikdə NATO-nun yeni yaradılmış məşvərətçi forumuna - Şimali Atlantika Əməkdaşlıq Şurasına (1997-ci ildən Avro-Atlantik Tərəfdaşlıq Şurası) qoşulması 1992-ci ilin mart ayına təsadüf edir. Azərbaycanla NATO arasında məzmunlu tərəfdaşlığın əsası isə Ümummilli Lider Heydər Əliyevin 4 may 1994-cü ildə Sülh Naminə Tərəfdaşlıq Çərçivə Sənədinin imzalanması ilə qoyulub.

Azərbaycanın NATO ilə tərəfdaşlığı onun Avro-Atlantik strukturlarına inteqrasiya məqsədinə xidmət edir.

*Ardı 2-ci səh.*

## UNUTSAQ - xəyanət etmiş olarıq!

"Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır".

İlham ƏLİYEV

Nəhayət!!!

Düz 27 ildən sonra ikinci dəfə dünyanın ən alçaq, ən hiyləgər, ən qorxaq, ən rəzil və faşist xislətli düşməni ilə qabaqqarşı vuruşduq!

**Bu dəfə murdar erməni heç kəsin arxasında gizlənə bilmədi!**

**Aldığı gizli dəstək və kömək də karına gəlmədi!**

**44 gün ərzində Ermənistan ordusu məhv edildi!**

**Düşmənin beli sındırıldı, qarşımızda diz çökdürüldü!**

**Qaçıb gizlənməyə yer tapmadı, gizləndiyi dəlmə-deşikdə isə dəqiq mərmi və raket atəşləri ilə yoğrularaq torpağa qarışdırıldı!**

44 gün ərzində Ermənistan ordusunu pərən-pərən salaraq qorxaqlar dəstəsinə, fərarilər yığnağına çevirdik!

Sinəsi dəmir-dümürlə dolu generallar, zabitlər tabeliklərində olan əsgərlərini, döyüş mövqelərini, silah-sursatlarını ataraq İrəvana qədər qorxaqcasına qaçdılar!

*Sonra hamilərinə və müdafiəçilərinə yalvararaq bizdən aman dilədilər!*

*Əlimizə-ayağımıza düşərək hərbi əməliyyatların dayandırılması üçün ağlayıb-sızladılar, neçə-neçə daban yaladılar!*

*Lap axırda qaranlıq bir yerə girərək kapitulyasiya aktına qol çəkdilər!*

**Çünki II Qarabağ müharibəsində artıq qarşılarında bambaşqa, yeni bir ordu görmüşdülər!**

- Bu orduya Müzəffər Ali Baş Komandan, "dəmir yumruğ"u ilə düşmənin başını əzib, belini qıran İlham Əliyev rəhbərlik edirdi!
- XXI əsrin qüdrətli ordusunu yaradan, onu ən müasir silahlarla, ən yeni strategiya və taktika ilə təmin edən Müzəffər Ali Baş Komandan İlham Əliyev!
- Düşmənin 30 ildə havadarlarının köməyi ilə yaratdığı altıqat müdafiə xəttini, "keçilməz" səngərlərini, beton bunkerlərini uğurlu taktikası və ağıllı manevrləri ilə heçə çıxaran Müzəffər Ali Baş Komandan İlham Əliyev!
- 44 gün ərzində "böyük Ermənistan", "məğlubedilməz ordu", "qalib xalq" xülyasını sabun köpüyü kimi partladaraq puça çıxaran Müzəffər Ali Baş Komandan İlham Əliyev!

*Bəli, otuz ildən sonra həsrətini çəkdiyimiz, bir dəqiqə belə unutmadığımız vətənə, doğma yurd-yuvaya qayıtdıq!*

ANCAQ...

*Ardı 3-cü səh.*



## "Qarabağ" sədaları Fransada

### Ağdam klubu bu axşam "Marsel"lə tarixi oyuna çıxacaq

*Bax: səh. 8*

## 6 gündə 7 mühüm elektrik enerjisi obyekti!

### Bunların 3-ü işğaldan azad edilmiş Ağdamda, biri isə onun qonşuluğunda işə salınıb



Azərbaycanda 6 gün ərzində - bu il fevralın 8-13-də 7 mühüm əhəmiyyətli elektrik enerjisi obyekti istifadəyə verilib. Şübhəsiz ki, cəmi 6 gündə enerji sahəsində belə bir uğur tək-tək ölkələrdə, həm də nadir hallarda qazanıla bilər.

Dövlət başçısının dediyi kimi: "Dünyada iqtisadi, maliyyə böhranı hələ də başa çatmayıb. Buna baxmayaraq, Azərbaycanda öz vəsaiti hesabına inşa edilən bu nəhəng obyektlərin istifadəyə verilməsi həm maliyyə imkanlarımızı göstərir, maliyyə müstəqilliyimizdən xəbər verir, texniki imkanlarımızı göstərir və onu göstərir ki, son illərdə elektrik enerjisi sahəsində çox böyük işlər görülüb, bu işlərin yenə də davamı var.

*Ardı 7-ci səh.*



## Avropada qaz ehtiyatları tükənib

### Yüksək sərfiyyat nəticəsində təchizatla bağlı problemlər başlaya bilər

*Bax: səh. 6*



# NATO-dan İlham Əliyevə tam dəstək

## Beynəlxalq təşkilat Azərbaycan Prezidentinin enerji siyasətini birmənalı təqdir edir

*Əvvəli 1-ci səh.*

Ölkəmizin NATO ilə tərəfdaşlığında əsas istiqamətlər siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatları, meydana gələn təhlükəsizlik təhdidləri və əsas vurğusu müdafiə məsələlərinə yönələn geniş spektrli məsələlər üzrə praktiki əməkdaşlıqdan ibarətdir. Qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında Azərbaycanın qarşılıqlı maraqlar əsasında NATO ilə əməkdaşlıq etmək məsələsi ölkəmizin Milli Təhlükəsizlik Konsepsiyası və Hərbi Doktrinasında öz əksini tapıb.

Azərbaycan fərdi tərəfdaşlıq məsələlərini özündə ehtiva edən əsas sənədlərdə əks olunmuş məqsəd və prinsiplərin yerinə yetirilməsindən ötrü NATO-nun müvafiq tərəfdaşlıq mexanizmlərindən fəal istifadə edir.

Azərbaycan 1996-cı il SNT Təqdimat Sənədi əsasında hazırlanan Fərdi Tərəfdaşlıq və Əməkdaşlıq Proqramı çərçivəsində hər il 200-dən artıq tədbirdə iştirak edir.

Fərdi Tərəfdaşlıq və Əməkdaşlıq Proqramı NATO-nun üzvü və bəzi tərəfdaş ölkələri tərəfindən təşkil olunan təcrübə mübadiləsi, hazırlığın artırılması məqsədi daşıyan, həmçinin ekspert müzakirələrinə xidmət edən tədbirlərdə iştiraka şərait yaradır.

### Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır

Fevralın 15-də NATO-nun Baş katibi Yens Stoltenberqin Prezident İlham Əliyevlə telefon danışığı zamanı səsləndirdiyi fikirlər bir daha əlaqələrin yüksələn xəttlə inkişafını təsdiq etdi.

Söhbət zamanı NATO-nun Baş katibi ötən ilin dekabrında NATO-da görüşlərinə və NATO-nun ali orqanı olan Şimali Atlantika Şurasında çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Azərbaycan-NATO əlaqələrinin inkişafından məmnunluq ifadə olunub, Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyətinə, Ukrayna ətrafında cərəyan edən proseslərə və dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparılıb. NATO-nun Baş katibi Avropanın etibarlı qaz təchizatçısı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü ifadə edib.

Prezident İlham Əliyev Azərbaycanın enerji məhsulu növlərinin önəmli ixracatçısı kimi etibarlı tərəfdaş olaraq qalmaqda davam edəcəyini diqqətə çatdırıb.

Xatırladaq ki, ötən ilin dekabrında İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində iştirak etmək üçün Brüsselə səfəri çərçivəsində NATO-nun mənzil-qərargahında alyansın Baş katibi Yens Stoltenberqlə görüşmüşdü. NATO-nun Baş katibinin dəvəti əsasında keçirilən görüşdə baş katib ölkəmizin alyansın dəyərli tərəfdaşı olduğunu deyərək Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətini yüksək qiymətləndirmişdi. Qeyd edilmişdi ki, Azərbaycan sülhməramlıları Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olublar və onlar 120 mindən çox insanın Əfqanıstan hava limanı vasitəsilə təxliyəsinə töhfə veriblər. Yens Stoltenberq buna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirmişdi.

Alyansın mənzil-qərargahına 7-ci dəfə səfər etdiyini söyləyən İlham Əliyev isə Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı olduğunu deyərək qeyd etmişdir ki, hərbçilərimiz 2002-ci ildən 2021-ci il avqustun sonunadək Əfqanıstanda xidmət ediblər.

Sonuncu səfər zamanı NATO-nun Şimali Atlantika Şurasının iclasında Azərbaycan-NATO əməkdaşlığı və praktiki müstəvidə əməkdaşlığın inkişafı, Alyansın Əfqanıstanda keçirilən "Qətiyyətli dəstək" missiyasına ölkəmizin töhfəsi, Azərbaycanla NATO arasında planlaşdırma analiz prosesi və digər proqramlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi məsələləri, həmçinin Azərbaycanın Avropanın enerji təchizatında rolu, regional proseslər barədə ətraflı fikir mübadiləsi aparılmışdı.

Toplantıda NATO-ya üzv dövlətlər tərəfindən ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olunmuşdur.

### Azərbaycan Avropanın etibarlı qaz təchizatçısıdır

Fevralın 4-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı zamanı çıxış edən İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan həmişə beynəlxalq bazarlara enerji resurslarının etibarlı təchizatçısı olmuşdur.

Azərbaycan neft ixracatına 2006-cı ildən başlayıb. Təchizatda isə heç bir fasilə olmayıb, müqavilə şərtləri pozulmayıb, enerji siyasəti arxasında heç bir siyasi gündəm olmayıb. İlham Əliyevin enerji siyasəti həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, bu da əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıb.

Bu gün qaz alan ölkələrin bazarlarında Azərbaycan qazının payı getdikcə artır. Bu ölkələrin bəziləri qaz istehlakının 80 faizini, digərləri isə 15-20 faizini Azərbaycandan alırlar və bu göstəricilər hər il artır. 2021-ci il və həmçinin bu ilin yanvar ayı ərzində ümumilikdə "Cənub qaz dəhlizi" vasitəsilə Gürcüstan, Türkiyə və Avropa istehlakçıları 18,5 milyard kubmetrdən çox, Avropa ölkələri isə 8,9 milyard kubmetr Azərbaycan təbii qazı ilə təchiz olunub. Bu onu göstərir ki, "Cənub qaz dəhlizi" Avropa ölkələrinin enerji təchizatında xüsusilə böyük əhəmiyyət kəsb edir. Bu amil isə dəhlizin Avropanın digər dövlətlərinə qədər genişləndirilməsini aktual edir.

Prezident Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatının 2,6 trilyon kubmetr olduğunu da vurğulayaraq bildirib ki, ən böyük yataq "Şahdəniz"dir. Bu, Azərbaycanda əsas qaz yatağıdır və bu vaxtadək "Cənub qaz dəhlizi"nə töhfə verən yeganə yataqdır. Lakin digər layihələr üzərində də iş gedir. Ümid edilir ki, ən böyük qaz kondensatı yataqlarından biri olan "Abşeron"da tezliklə qaz hasilatına başlanılacaq. Prezidentin söylədiyi kimi, "Abşeron"da birinci mərhələdə 1,5 milyard kubmetr qaz hasil olunacaq. Bu, böyük bir həcm deyil. Lakin bəzi ölkələr üçün əhəmiyyətli göstəricidir. Bu, Azərbaycanın artan tələbatını qarşılaya bilər və həmçinin ixrac imkanlarını da təmin edə bilər.

Göründüyü kimi, Cənubi Qafqaz regionunda geosiyasi və geoiqtisadi çəkisi gündən-günə artan, Avrasiyanın əlverişli nəqliyyat-logistika mərkəzinə çevrilərək qitənin enerji xəritəsini yenidən tərtib edən Azərbaycan reallaşdırdığı transmilli layihələrlə beynəlxalq birliyin ən etibarlı tərəfdaşı hesab olunur. Açıq dənizə çıxışı olmayan bir ölkənin qısa zamanda Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə çevrilməsi, həqiqətən də, ölkəmiz adına böyük nailiyyətdir. Bu uğurlar Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyevin 19 il ərzində həyata keçirdiyi tam müstəqil və düşünülmüş siyasəti nəticəsində əldə edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan***

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub



Fevralın 16-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov həmkarının COVID-19 testinin pozitiv çıxması xəbərini təəssüflə qarşıladığını bildirib və onun tezliklə tam sağalmasını diləyib.

Nazir Ceyhun Bayramov həmçinin qısa müddətdə nazir Mövlud Çavuşoğlunu Azərbaycanda səfərdə görməkdən məmnun olacağını ifadə edib.

# Azərbaycanın və Rusiyanın XİN rəhbərləri üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər



Fevralın 16-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələlərini müzakirə ediblər. Cari ildə iki dövlət arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağını nəzərə alaraq, tərəflər bu xüsusda təşkil ediləcək tədbirlərə dair fikir mübadiləsi aparıblar.

Nazirlər regiondakı vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri də müzakirə ediblər.

Tərəflər həmçinin Ukrayna ətrafındakı mövcud vəziyyətə dair fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı habelə Azərbaycanın ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunda sədrliyi çərçivəsində əməkdaşlıq da müzakirə olunub.

# Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası olub



Prezident İlham Əliyevin 2017-ci il martın 17-də imzaladığı Sərəncamla yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda dövlət başçısının sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" çərçivəsində 2021-ci il ərzində görülən işlər, əldə edilən nəticələr, qarşıda duran vəzifələr müzakirə edilib.

Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində 2021-ci il ərzində görülmüş işlər, əldə edilən uğurlar barədə məlumat verib. Komissiyanın sədri hesabat dövründə "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" üzrə tapşırıqların icrası ilə bağlı fəaliyyətin davam etdirildiyini bildirib, bu sahədə qəbul edilmiş qanunvericiliyin icrasına nəzarət, formal məşğulluğun təşviqi, maarifləndirmə, elektron nəzarət sistemlərinin qurulması və digər istiqamətlərdə tədbirlərin həyata keçirildiyini vurğulayıb. O, Prezidentin 2021-ci il dekabrın 17-də imzaladığı Sərəncama əsasən, bu il yanvarın 1-dən minimum əməkhaqqının məbləğinin 300 manata çatdırılmasının əhalinin sosial rifahının qorunması, muzdla işləyən şəxslərin layiqli əmək şəraitinin təmin edilməsi, eləcə də işçilərin formal məşğulluğa təşviqinə xüsusi töhfə verdiyini, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını stimullaşdırdığını diqqətə çatdırıb.

İclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, Qanunvericilik və idarəetmə üzrə İşçi qrupun rəhbəri Anar Əliyev tikinti sahəsində vətəndaşların əmək hüquqlarının qorunması, sosial təminatlardan yararlanmasının təmin edilməsi, əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarətin gücləndirilməsi və monitorinqin təşkili ilə bağlı məlumat verib. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov avtomobil nəqliyyatı sahəsində qeyri-formal məşğulluq halları barədə, bununla mübarizə sahəsində görülən işlər haqqında çıxış edib.

Müzakirələrdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxış edərək müzakirə olunan məsələlərə münasibət bildiriblər.

Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının 2021-ci il üzrə fəaliyyətinə dair dövlət başçısına təqdim ediləcək hesabatın layihəsi müzakirə edilərək qəbul olunub.

Komissiyanın sədri qarşıda duran vəzifələrin icrası, o cümlədən formal məşğulluğun təşviqi istiqamətində maarifləndirmə tədbirlərinin gücləndirilməsinə dair tapşırıqlar verib.

# Milli Məclisdə aqrar sahə ilə bağlı dinləmə keçirilib

Fevralın 16-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, eləcə də Aqrar siyasət komitələrinin təşkilatçılığı, Kənd Təsərrüfatı Nazirliyinin iştirakı ilə birgə dinləmə keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri giriş sözü ilə açan Milli Məclisin komitə sədri Tahir Mirkişili bildirib ki, dinləmədə Azərbaycanda aqrar sahə üzrə görülən işlər, qarşıda duran çağırışlar və inkişaf hədəflərinə dair təqdimatlar keçiriləcək və müzakirələr aparılacaq.

Kənd təsərrüfatı sahəsinin Azərbaycan iqtisadiyyatında, ixracatında tutduğu mövqeyindən söz açan Tahir Mirkişili iqtisadi məşğul əhalinin əhəmiyyətli hissəsinin bu sektorda çalışdığını, qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının ilk beşlikdə yer aldığını vurğulayıb. Azərbaycanda aqrar sahədə həyata keçirilən islahatların öz bəhrələrini verməkdə olduğuna toxunan komitə sədri 2022-ci ilin dövlət büdcəsində bu istiqamətdə, o cümlədən aqrar sığortaya ayrılan vəsaitləri qeyd edib. Komitə sədri bildirib ki, bununla belə, qarşıda duran çağırışlar - dünyada ərzaq məhsulları üzrə müşahidə olunan çatışmazlıq, bu cəhətdən qiymətlərin artması, iqlim dəyişikliyi ilə bağlı ortaya çıxan çətinliklər bu sahəyə yeni yanaşmaların tətbiqini və diqqətin artırılmasını zəruri edir. Tahir Mirkişili təşkil olunan dinləmənin də bu istiqamətdə görülən işlərin və perspektivin dəyərləndirilməsi baxımından əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev də dinləmənin aqrar sahənin inkişaf etdirilməsi yollarının müəyyənləşdirilməsi baxımından faydalı olacağına inamını ifadə edib. Kənd təsərrüfatı sahəsində dövlətin diqqət və qayğısını, sahibkarların və fermerlərin fədakarlığını qeyd edən Tahir Rzayev bu sahənin çətinliklərindən, xüsusən də onun təbii amillərdən asılı olmasından danışıb. Aqrar sahənin inkişafına ayrılan dövlət vəsaitlərindən söz açan komitə sədri kənd təsərrüfatının mövcud vəziyyəti, əldə olunan nailiyyətlərdən bəhs edib. Ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasının yerli istehsalın üzərində qurulduğu qeyd edən Tahir Rzayev aqrar sahənin inkişafı və aktual məsələləri ilə bağlı fikirlərini bildirib.

Sonra Kənd təsərrüfatı naziri İnam Kərimov çıxış edib. Nazir Prezident İlham Əliyevin respublikanın prioritet inkişaf sahələrindən biri elan etdiyi aqrar sektorda əldə olunan uğurlu göstəriciləri diqqətə çatdırıb. Son beş ildə aqrar sahədə məhsul artımının təxminən 25 faiz təşkil etdiyini deyən nazir kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikasının 2021-ci ildə də davam etdiyini, ümumi istehsal həcmində 3,4 faizlik artım qeydə alındığını açıqlayıb. Keçən il taxılçılıq, pambıqçılıq və digər önəmli sahələrdə məhsuldarlığa diqqət çəkən nazir ölkəmizin kənd təsərrüfatı məhsullarının ixracı, bir çox məhsullar üzrə özünütəminetmədə müsbət dinamikanı göstərən rəqəmləri səsləndirib. O, ərzaq təhlükəsizliyinin təmini sahəsində Kənd Təsərrüfatı Nazirliyinin üzərinə düşən vəzifələrdən, bu istiqamətdə görülən işlərdən danışıb. Aqrar sahədə tətbiq olunan yeniliklərdən, institusional islahatlardan bəhs edən nazir Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin yaradılması, texnika və damazlıq heyvan satışı bazarının artıq tam liberallaşması, bazar iqtisadiyyatı tələblərinə uyğun aqrar sığorta sisteminin tətbiqi barədə məlumat verib.

Aqrar sahədə müasir dövrün çağırışlarına uyğun dayanıqlı inkişaf mexanizmləri formalaşdırmağın, iqlim dəyişikliklərinə adaptasiya strategiyasını tətbiq etməyin əsas vəzifələrdən olduğunu qeyd edən nazir mövcud olan məhdud torpaq və su resurslarından səmərəli istifadənin aktuallığını xüsusi vurğulayıb.

Sonra dinləmədə təqdimatlar həyata keçirilib.

Aqrar Xidmətlər Agentliyinin sədri Mirzə Əliyevin aqrar sahədə islahatlar və həyata keçirilmiş tədbirlər barədə təqdimatında kənd təsərrüfatı sektorunda subsidiyaların verilməsinin yeni mütərəqqi mexanizmləri, bu sahədə şəffaflığın daha da artırılması, kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi, yaradılan yeni qurumların effektivliyi barədə deputatlara məlumat verilib.

Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadənin təqdimatlarında isə respublikanın "Ərzaq təhlükəsizliyi və ixrac üzrə aqrar sahənin inkişaf hədəfləri" və "Azərbaycanın buğda ilə özünütəminetməsi: mövcud vəziyyət, problemlər, perspektivə baxış" mövzuları təhlil edilib.

Dinləmədə müzakirə olunan mövzularla bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, deputatlar Eldar İbrahimov, Cavanşir Paşazadə, Elnur Allahverdiyev, Azər Badamov, Mahir Abbaszadə, Emin Hacıyev, Rüfət Quliyev, Müşfiq Cəfərov, Vüqar Bayramov, İqbal Məmmədov, Aydın Hüseynov, Məzahir Əfəndiyev çıxış ediblər. Deputatlar kənd təsərrüfatının aktual məsələləri ilə bağlı suallarını səsləndiriblər, bölgələrdə məşğulluq səviyyəsinin yüksəldilməsinin təmini, ölkənin ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə dair fikirlərini açıqlayıblar.

Diskussiya şəraitində keçən dinləmədə qaldırılan məsələlərə aydınlıq gətirilib, suallar cavablandırılıb.

Tədbirə yekun vuran Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili dinləmələrdə fəal iştirak etdiklərinə görə qonaqlara və deputatlara təşəkkür edib və aparılan fikir mübadiləsinin aqrar sahənin inkişafı baxımından faydalı olacağına inamını bildirib.

Dinləmədə Aqrar siyasət komitəsi sədrinin müavini Sabir Hacıyev, deputatlar Novruzəli Aslanov, Məşhur Məmmədov, Anar Məmmədov, kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Seymur Mövlayev və digər rəsmi şəxslər iştirak ediblər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın Ermənistanın qeyri-qanuni əməlləri ilə bağlı hesabatı BMT-nin rəsmi sənədi kimi yayılıb

Azərbaycan tərəfinin hazırladığı "Ermənistan tərəfindən qeyri-kommersiya təşkilatları və xeyriyyə qurumlarından korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə sui-istifadə edilməsi" adlı hesabat BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, hesabatda 44 günlük Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Ermənistan hökuməti tərəfindən bir çox ölkələrdə fəaliyyət göstərən erməni diaspor təşkilatları vasitəsilə humanitar yardım adı altında, beynəlxalq maliyyə ödənişi sistemlərindən istifadə etməklə qanunsuz ianə toplanması kampaniyalarının təşkil edildiyi və həmin kampaniyalar çərçivəsində yığılan vəsaitin Azərbaycanın suveren əraziləri daxilində onun mülki əhalisinə qarşı terror fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə xərcləndiyi vurğulanır. Ermənistanın dövlət rəsmilərinin bəyanatları və erməni ictimai mənbələrinin məlumatları əsasında hazırlanmış hesabatda təkcə Vətən müharibəsi dövründə 73 ölkədə yaşayan erməni diaspor təşkilatları tərəfindən 170 milyon ABŞ dollarından artıq vəsaitin toplandığı və bunun 110 milyon ABŞ dolları hissəsinin müharibə xərclərinin ödənilməsi məqsədilə Ermənistanın dövlət büdcəsinə köçürüldüyü qeyd edilir. Qeyd olunan fakt Ermənistan baş nazirinin 2021-ci il aprelin 21-də Ermənistan parlamenti qarşısında 2020-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı çıxışında əksini tapıb.

Əksəriyyəti Ermənistanın siyasi rəhbərliyinin təmsil olunduğu "Hayastan All Armenian Fund" tərəfindən təşkil və idarə olunan bu cür ianə kampaniyaları Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan sonra da davam etdirilməkdədir.

Xarici İşlər Nazirliyi bildirir ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş və onun ərazisinə qanunsuz maliyyə axını yaradan bu cür fəaliyyətlər Azərbaycanla yanaşı, müvafiq erməni diaspor təşkilatlarının qeydiyyatda olduğu ölkələrin milli qanunvericiliklərinin, eləcə də çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində mövcud olan beynəlxalq öhdəliklərin kobud şəkildə pozulmasıdır. Bununla əlaqədar Xarici İşlər Nazirliyi bütün BMT üzv dövlətlərini öz ərazilərində qeydiyyatda olan və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş bu cür qanunsuz fəaliyyətlə məşğul olan qurumlara münasibətdə öz beynəlxalq öhdəlikləri çərçivəsində səmərəli əks tədbirlər görməyə çağırır.

# Müşahidə Şurasının növbəti iclası

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının növbəti iclası keçirilib.

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, iclasın gündəliyinə agentliyin növbəti qrant müsabiqəsinin mövzularının müəyyən edilməsi, qrant müsabiqəsi üçün təqdim edilən layihə sənədlərinin - ərizə, layihə təklifi, xərclər smetası və fəaliyyət planının təsdiqi, dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə razılaşdırılmasına dair təlimatın təsdiq edilməsi, Rəy Komissiyasının dövlət orqanları tərəfindən daxil olan məlumatlar əsasında təqdim etdiyi müraciəti, agentliyin icraçı direktorunun təqdimatı və cari məsələlər daxil edilib.

İclasda gündəlikdə yer alan məsələlərlə bağlı qərarlar qəbul olunub və cari məsələlər müzakirə edilib.



## Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# UNUTSAQ - xəyanət etmiş olarıq!

*Əvvəli 1-ci səh.*

Elə bil bu ərazilərdə 18 ballıq zəlzələ baş vermişdi!

Bütün yaşayış məntəqələri, binalar darmadağın edilmiş, daş-torpaq yığnağına çevrilmişdi!

Təbii ki, 18 ballıq zəlzələ olmur və belə bir təbii fəlakət baş versəydi, bunu tək biz yox, bütün dünya bilərdi!

Sanki Qarabağ ərazisindən vəhşi qəbilələr keçmişdi!

Heç onlar da bu qədər vəhşilik və barbarlıq edə bilməzdilər!

Əslində, bu torpaqlara erməni faşizminin murdar nəfəsi dəymişdi!

Yalnız erməni xisləti belə qəddarlığa, amansızlığa, qeyri-insani hərəkətlərə qadirdir!

**Düşmən murdar xislətinə xas olanların hamısını edib!**

Avropalılar bu mənzərələri öz yanaşmaları ilə dəqiq qiymətləndirdilər!

Erməninin bir dənə də salamat tikili qoymadığı Ağdamı "Qafqazın Xirosiması", "ruhlar şəhəri" adlandırdılar!

Bəli, bütün dünyanın lənətlə andığı növbəti Xirosimanı Qarabağda erməni faşizmi törətmişdir!

*Artıq dünya Qarabağda törədilən XXİ əsrin qəbilə vandallığından xəbərdardır!*

*Təkcə Azərbaycan xalqı deyil, dünyanın bütün ölkələrində yaşayanlar da tarixin görünməyən vəhşiliklərini öz gözləri ilə görüblər:*

- dünyaya yayımlanan Azərbaycan telekanalları vasitəsilə;
- dünyanın əksər ölkələrindən Qarabağa gələrək bu faciədən çəkilişlər aparmış KİV vasitəsilə;
- beynəlxalq miqyasda tanınmış QHT təmsilçilərinin və bloqçuların Qarabağa səfərdən sonra öz ölkələrinin telekanallarında və internetdə yaydıqları süjetlər vasitəsilə;
- bu vəhşilikdən sarsılmış insanların mobil telefonlarına çəkərək sosial şəbəkələrdə yerləşdirilmiş həvəskar çəkilişləri vasitəsilə;
- ən nəhayət, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Qarabağa çoxsaylı səfər edərkən müraciət, açıqlama və müsahibələrini müşayiət edən operator çəkilişləri vasitəsilə!

**Daha erməni dəvə kimi başını kolluğa soxaraq özünü "qədim", "mədəni", "zavallı" toplum kimi təqdim edə bilmir!**

**Çünki otuz ildə işğal etdiyi özgə torpaqlarındakı vəhşiliklər göz önündədir!**

❖ ❖ ❖

*Artıq biz öz Qarabağımıza qayıtmışıq!*

*Artıq biz otuz ildən sonra da olsa, öz torpağımıza sahib çıxmışıq!*

*Artıq biz öz Vətənimizdəyik və hər zaman, hər an ucadan qürurla, var səsimizlə "Qarabağ Azərbaycandır!" - deyə hayqırırıq!*

Bu xarabalıqlar da bizə çox doğma, çox əzizdir!

Əvvəla, Vətənimizdir!

İkincisi isə, onu böyük qurbanlar hesabına, hər biri bizim üçün müqəddəs və əziz olan şəhidlərimizin qanı bahasına qaytarmışıq!

**Doğrudur, şəhid balalarımızın qisasını artıqlaması ilə almışıq!**

**Doğrudur, ermənini rəzil, şərəfsiz günə salmışıq!**

**Doğrudur, 44 günlük Vətən müharibəsindən sonra nə erməni ordusu qalıb, nə müstəqil Ermənistan dövləti var, nə də yaxın müddətdə onun böhrandan, dilənçi vəziyyətindən, siyasi xaosdan, miqrant axınından qurtarmaq imkanı!**

*Cavabımız ağır, zərbəmiz güclü, nəticə isə heç kəsin - nə Ermənistanın havadarlarının, nə dünya erməniliyinin, nə də "böyük Ermənistan" xülyasından ağlını itirən erməni vətəndaşlarının ağıllarına belə gətirə bilməyəcəkləri həcmdə və qüdrətdə olub!*

*"Dəmir yumruq" isə yenə hər an ağılsız başları əzməyə hazır vəziyyətdədir!*



❖ ❖ ❖

Tale bizi zorla ermənilərə qonşu edib!

Biz heç hara gedəsi deyilik, yenicə doğma yurd-yuvaya qayıtmışıq!

Ermənini isə baş götürüb qaçmağa qoymurlar!

**Faşist xislətli, murdar niyyətli, revanşist düşüncəli düşmənlə qonşu olduğumuzu bir an belə unutmağa haqqımız yoxdur!**

- Daim güclü olmalıyıq!
- Daim qüdrətli orduya sahib olmalıyıq!
- Daim hər bir təxribat əməlinə hazır olmalıyıq!
- Daim erməni qudurğanlığının payını artıqlaması ilə verməyi bacarmalıyıq!

**Ən əsası isə, bu vəhşilikləri, bu qəddarlıqları, bu dağıntıları, bu xarabalıqları unutmamalıyıq!**

- Bunu bizə Prezidentimiz deyir!
- Bunu bizə tariximiz deyir!
- Bunu bizə real vəziyyət və mövcud şərait diktə edir!

**İndiyədək olanları unutmağa mənəvi haqqımız yoxdur!**

- Unutsaq - özümüzə xəyanət etmiş olarıq!
- Unutsaq - millətimizə xəyanət etmiş olarıq!
- Unutsaq - xalqımıza xəyanət etmiş olarıq!
- Unutsaq - torpaq uğrunda canından keçmiş şəhidlərimizin müqəddəs ruhuna xəyanət etmiş olarıq!

*Xocalıda soyqırımına uğradılan qocaların, qadınların, uşaqların ruhuna xəyanət etmiş olarıq!*

*Yalnız azərbaycanlı olduğuna görə, Qarabağda yaşadığına görə erməni vandalları tərəfindən vəhşicəsinə qətlə yetirilən iyirmi beş mindən çox vətəndaşımızın ruhuna xəyanət etmiş olarıq!*

*Alçaq ermənilər tərəfindən öldürülən yüzlərlə azərbaycanlının - ləzginin, talışın, rusun, yəhudinin, tatın, ingiloyun, avarın - bir sözlə, Azərbaycanı özünə doğma vətən bilən və onun uğrunda canından keçən oğullarımızın ruhuna xəyanət etmiş olarıq!*

**Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə torpaqlarımızı geri qaytardıq, alçaq düşməndən bütün qisaslarımızı aldıq!**

Onları "Bayraqdar"larla məhv edərək müqəddəs torpaqlarımızdan it kimi qovduq!

Tam əminik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma Qarabağımızı cənnətə çevirəcəyik!

**Cümlə Qarabağ əvvəlkindən də gözəl, varlı və qüdrətli olacaqdır!**

- Amma indiki xarabalıqları, yerləyeksan edilmiş kənd, şəhər və qəsəbələri unutmamalıyıq!
- Dağıdılmış, təhqir edilmiş, donuz, qaramal saxlanmış məscidlərimizi heç zaman yaddan çıxarmamalıyıq!
- Yandırılmış məktəbləri və uşaq bağçalarını, talan edilmiş mal-mülkləri, qarət olunmuş muzeyləri, mədəniyyət ocaqlarını unutmamalıyıq!
- Məhv edilmiş nadir meşələrimizi, kəsilmiş meyvə bağlarımızı, yağmalanıb daşınmış yeraltı və yerüstü sərvətlərimizi unutmamalıyıq!
- Dağıdılmış asfalt yollarını, sökülüb satılmış dəmir yolu xətlərini, partladılmış körpüləri, sıradan çıxarılmış elektrik, su xətlərini, kəhrizləri, artezian quyularını, zəhərlənərək suları çirkləndirilmiş çaylarımızı, göllərimizi, balıqları unutmamalıyıq!
- Başdaşıları oğurlanaraq kimlərəsə satılmış, dəmir cağları oğurlanıb aparılmış, qızıl dişlərinə görə gor evini eşərək qəbirləri tar-mar olunmuş qəbiristanlıqları unutmamalıyıq!

**Bunu bizdən Vətən tələb edir!**

**Bunu bizdən müqəddəs şəhid ruhları tələb edir!**

**Bunu bizdən qəhrəman qazilərimiz tələb edir!**

**Bunu bizdən başı bəlalar çəkmiş yaralı Vətən torpağı tələb edir!**

**Bəxtiyar SADIQOV**

# Zəfərdən intibaha

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı Məkkədən gətirdiyi "Qurani-Kərim"i bu məscidə bağışladı. Qeyd edək ki, Xocalı soyqırımında sağ qalan xocalıların ümid, pənah yerinə çevrilən qoşa minarəli bu məscid də işğal dövründə düşmən tərəfindən vandallığa məruz qalıb.

Prezident İlham Əliyevin və Mehriban Əliyevanın həmin ilin dekabr ayında Zəngilan səfəri zamanı da baş çəkdikləri ünvanlardan biri dağıdılmış məscid idi. "Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib", - deyə Prezident İlham Əliyev məscidin qarşısındakı çıxışında bildirmişdi.

Ötən il yanvarın 14-də Şuşaya səfər edən Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva şəhərdəki Saatlı, Aşağı Gövhər ağa və Yuxarı Gövhər ağa məscidlərini ziyarət etdilər, "Qurani-Şərif" bağışladılar. Bu səfərin ən yaddaqalan və tarixi məqamlarından biri də Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün büstlərinin Şuşada yenidən əvvəlki yerlərinə qoyulması idi. Şuşaya növbəti səfəri zamanı isə dövlət başçısı və ailə üzvləri Pənahəli xanın sarayının qalıqlarına baxmışdılar. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.

Bütövlükdə, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş rayonlara səfərləri zamanı tarixi və dini abidələrlə, eyni zamanda bu abidələrdə aparılan bərpa işləri ilə tanışlıq prioritet təşkil edib. Bir neçə gün əvvəl Ağdama səfəri zamanı Prezident İlham Əliyevin və birinci xanımın getdikləri ünvanlar arasında Ağdam Cümə məscidi və İmarət kompleksi də vardı. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.

## Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurun bərpasına tarixi töhfələr verir

Hazırda Qarabağ və Şərqi Zəngəzur əsl tikinti meydanını xatırladır. 30 ilə yaxın işğal dövründə erməni vandallığına məruz qalan bu ərazilər bərpa olunur, yenidən qurulur. Azad edilmiş ərazilərdə icra olunan infrastruktur layihələri, yeni yaşayış məhəllələrinin salınması həm də dövlətimizin iqtisadi qüdrətinin göstəricisidir.

Ermənilərin dağıtdığı tarixi və mədəni abidələrin bərpası da diqqət mərkəzindədir və indiyədək bu istiqamətdə çoxsaylı layihələrin icrasına başlanılıb. Zəngilanda, Şuşada, Hadrut qəsəbəsində, Daşaltıda yeni məscidlərin təməli qoyulub.

Bərpa işlərinin bir qismi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Vaqifin məqbərəsi fond tərəfindən Şuşada artıq əvvəlki görkəmi saxlanılmaqla bərpa edilib, ətrafı abadlaşdırılıb. Ötən ilin martında Heydər Əliyev Fondu tərəfindən başlanan bərpa işləri bir neçə aya yekunlaşıb. Vaqifin Şuşadakı evinin yaxınlığındakı büstü də yenidən qurulub. 1992-ci ildə Şuşanın işğalından sonra şəhərdəki digər abidələr kimi büst də vandalizmə məruz qalaraq dağıdılmışdı.

Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidləri də Heydər Əliyev Fondu tərəfindən bərpa olunur. Hər üç məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Ötən il Azərbaycan, Avstriya, İtaliya, Latviya və Türkiyədən olan ekspertlər tərəfindən bu məscidlərdə qiymətləndirmə işləri aparılıb, bərpa layihəsi işlənilib. Yuxarı Gövhər ağa məscidində bərpa işlərinin birinci mərhələsi artıq başa çatıb. Hazırda məsciddə ikinci mərhələ üzrə bərpa işləri aparılır. Bu mərhələdə məsciddə ilkin layihə qorunmaqla möhkəmləndirmə işləri həyata keçiriləcək, məscidin ərazisində olan və ermənilər tərəfindən dağıdılmış mədrəsə bərpa ediləcək. Ən geniş bərpa işləri dağıntıların miqyasına uyğun olaraq, Aşağı Gövhər ağa məscidində aparılacaq. Məscidlərin minarələri bərpa olunacaq, eləcə də dam və döşəmə örtükləri dəyişdiriləcək.

Şuşadakı mühüm mədəni-tarixi memarlıq abidələrindən olan Mehmandarovların malikanə kompleksində də bərpa işlərini Heydər Əliyev Fondu aparır. Artıq bərpa işlərinin böyük bir qismi yerinə yetirilib.

Heydər Əliyev Fondu tərəfindən bərpa olunacaq abidələrdən biri də Ağdam Cümə məscididir. Ağdamda olarkən Prezident İlham Əliyev bildirdi ki, artıq bütün tədqiqatlar aparılıb və mart ayından başlayaraq məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək.

Prezident İlham Əliyev yanvarın 18-də xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında çıxışı zamanı Heydər Əliyev Fondunun azad olunmuş ərazilərdə həyata keçirdiyi layihələrlə bağlı deyib: "Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, Fond digər layihələrdə də fəal iştirak edəcək".

Heydər Əliyev Fondu öz fəaliyyəti ilə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasına tarixi töhfələr verməkdədir. İşğaldan azad olunmuş ərazilərimizdə tarixi və mənəvi abidələrimizin bərpası isə milli və mənəvi dəyərlərimizə ehtiramın böyük təcəssümüdür. Tarixi görkəmlərini özünə qaytaran bu abidələrin hər biri Qarabağın və Şərqi Zəngəzurun qədim Azərbaycan torpaqları olduğunu yenidən dünyaya bəyan edəcək.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Beynəlxalq səyahətçilərin Qarabağ və Şərqi Zəngəzura səfəri

## Dünyaşöhrətli beynəlxalq səyahətçilər Şuşa şəhəri ilə tanış olublar




Xocalı soyqırımının 30 illiyi ərəfəsində 21 ölkədən olan tanınmış səyyahlar işğaldan azad edilmiş ərazilərə səfəri Şuşa şəhərini ziyarətlə başlayıblar.

AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə Şuşanın qala divarları ilə tanış olublar. Onlara məlumat verilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb. Səyyahlar Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini ziyarət ediblər. Dünyaşöhrətli fotoqraf Rza Deqqəti Birinci Qarabağ müharibəsi zamanı şahidi olduğu hadisələri qonaqlara danışıb, Şuşa şəhərinin erməni işğalından əvvəlki və sonrakı vəziyyəti haqqında səyyahlara məlumat verib.

Ziyarətçilər daha sonra Yuxarı Gövhər ağa məscidində olublar. Qonaqlara məlumat verilib ki, 30 illik işğal dövründə dini abidələr, o cümlədən məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyi ziyarət olunub. Muzeyin fəaliyyəti və tarixi barədə qonaqlara məlumat verilib.

Səfər iştirakçılarının Şuşada son dayanacağı Cıdır düzü olub. Onlar Cıdır düzündən açılan gözəl mənzərəni seyr ediblər.

## Xülasə

Fevralın 16-da 20 ölkədən 30-dan çox dünyaşöhrətli beynəlxalq səyahətçinin Qarabağ və Şərqi Zəngəzura səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, fevralın 18-dək davam edəcək səfər Yer kürəsini müvafiq parametrlər əsasında 1301 regiona bölərək bu sahədə səyyahlar üçün beynəlxalq standartları müəyyənləşdirən dünyamiqyaslı "NomadMania" klubunun təşkilatçılığı ilə həyata keçirilir. ABŞ, Böyük Britaniya, Almaniya, Niderland, Danimarka, Avstriya, İtaliya, İspaniya, Portuqaliya, Polşa, Macarıstan, Bosniya və Herseqovina, Serbiya, Slovakiya, Ukrayna, Türkiyə, Tailand, Küveyt, Əlcəzair, Avstraliyanı təmsil edən səyyahların səfəri Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan başlayır.

Şuşa ilə yaxından tanışlıqdan sonra bu gün beynəlxalq səyahətçilər Ağdamda olacaq. Tanınmış fotoqraf Rza Deqqəti Ağdamın dünəni və bu günü ilə bağlı səyyahlar qarşısında sərgi ilə çıxış edəcək. İndi işğaldan azad edilmiş digər yerlər kimi, Ağdama da həyat yenidən qayıdır, bərpa və quruculuq işləri sürətlə davam etdirilir.

Beynəlxalq səyahətçilər Qarabağdan sonra Şərqi Zəngəzura səfər edəcək, törədilmiş urbisidi öz gözləri ilə görəcəklər. Həmçinin Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlərlə yerində tanış olacaqlar. Dünya səyyahları fevralın 18-də səfər qeydlərini Bakıda mətbuat konfransı keçirərək ictimaiyyətlə bölüşəcəklər.

Heyətə "NomadMania" klubunun yaradıcısı və rəhbəri, dünyanın 1301 regionundan 1252-də olaraq dünya rekordçusu olan Harry Mitsidis (https://nomadmania.com/master/ALL/0/1/20/0) rəhbərlik edir. Xatırladaq ki, beynəlxalq səyahət klublarının (ETIC - Extremal Travellers International Congress, MTP - Most Traveller People, TCC -Travelers' Century Club, "Nomadmania") rəhbərləri bir qrup səyyahla birgə ilk dəfə 2021-ci il sentyabrın 27-də azad edilmiş ərazilərə səfər etmişdilər. On bir ölkədən olan heyət o vaxt kommersiya təyinatlı sınaq uçuşu ilə ilk dəfə Füzuli Beynəlxalq Hava Limanına enmiş, azad edilmiş ərazilərdə olmuş və dağıntılara, quruculuq işlərinə şahidlik etmişdilər. Bu dəfə isə səyyahların təmsil olunduğu ölkələrin coğrafiyası 2 dəfə böyüyüb.

Dünyaşöhrətli beynəlxalq səyahətçilərin 2020-ci ildə ağır döyüşlərin getdiyi, indi isə bərpa və quruculuq dövrünü yaşayan işğaldan azad edilmiş ərazilərə bu səfəri həm də tarixi Zəfərin daha bir nəticəsi kimi rəmzi məna daşıyır. Bu bir tərəfdən Azərbaycanın iqtisadi qüdrətini, qısa müddətdə nümayiş etdirdiyi böyük quruculuq potensialını, digər tərəfdən dünyanın biznes və turizm elitasının Qarabağa, Şərqi Zəngəzura, o cümlədən Zəngəzur dəhlizinə getdikcə artan marağını ifadə edir.

## Ağdamda səfərdə olan dünyaşöhrətli səyahətçilərə erməni vandalizmi barədə məlumat verilib



İşğaldan azad edilmiş ərazilərə səfər edən xarici səyyahlar Şuşa şəhəri ilə tanış olduqdan sonra fevralın 16-da Ağdama gəliblər.

AZƏRTAC xəbər verir ki, 21 ölkədən olan dünyaşöhrətli beynəlxalq səyahətçilər düşmən işğalından azad edilən Ağdamda Cümə məscidini ziyarət ediblər. Qonaqlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etmələri barədə məlumat verilib. Bildirilib ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam şəhər Cümə məscididir. Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilib. Ölkə əhəmiyyətli abidələr siyahısında olan bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Erməni vandalları Ağdam Cümə məscidində də mal-qara saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Qonaqlar Ağdam şəhərinin dağıntıları ilə də tanış olublar. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan XVIII əsrdə Ağdamda ağ daşdan ev tikdirib. Ağdam şəhərinin adı da buradan götürülüb. Qədim türk dilində isə Ağdam kiçik qala mənasını daşıyır. Ağdam şəhəri Qarabağ xanlığı dövründə inkişaf edib. Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ağdam Azərbaycan elminə və mədəniyyətinə onlarla görkəmli şəxsiyyət bəxş edib. Ağdamda həm də Azərbaycan mədəniyyətinin ən vacib nümunəsi sayılan muğam geniş inkişaf edib. Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərib.

Daha sonra dünyaşöhrətli fotoqraf Rza Deqqəti Birinci Qarabağ müharibəsi zamanı Ağdam Cümə məscidi və şəhərdə şahidi olduğu ağrı-acılı xatirələri bölüşüb, eyni zamanda fotoşəkilləri qonaqlarla paylaşıb.

Rza Deqqəti qonaqların suallarını da cavablandırıb.











### *Niderlandlı səyyah:* "Biz Azərbaycana Qarabağın tarixini öyrənmək üçün gəlmişik"



"Mən üçüncü dəfədir ki, Azərbaycana gəlirəm. Biz buraya Qarabağ regionunun tarixini öyrənmək üçün gəlmişik".

Bu fikirləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edən niderlandlı səyyah Boris Kester Şuşada AZƏRTAC-a müsahibəsində bildirib.

Qarabağda dağıdılmış binaları, eyni zamanda aparılan tikinti işlərini gördüyünü deyən səyyah qeyd edib: "Şuşa çox maraqlı şəhərdir. İnanıram ki, Şuşanın tarixini daha dərindən öyrənəcəyəm".

### *Portuqaliyalı səyyah:* "Şuşanın mistik, gözəl aurası var"



"Mən burada ilk dəfə bir neçə ay əvvəl olmuşdum. İkinci dəfədir ki, Şuşa şəhərinə gəlirəm".

Bunu AZƏRTAC-a müsahibəsində Portuqaliyadan olan səyyah Luik Dos Santos Pedras deyib.

Şəhərin qarlı olan zaman daha çox gözəl göründüyünü bildirən dünyaşöhrətli səyyah qeyd edib: "Buranın mistik, gözəl aurası var. Şəhərdə gedən tikinti işlərinin və dağıdılmış binaların bərpasının şahidi olduq".

### *Britaniyalı səyyah:* "Qarabağın təbiəti, dağları möhtəşəmdir"



"Ümid edirəm ki, gələcəkdə Azərbaycan və Ermənistan sülh içində yaşayacaq".

AZƏRTAC xəbər verir ki, bunu Böyük Britaniyadan gəlmiş səyyah Samuel Ceyms Havtorn Şuşaya səfəri zamanı deyib.

Bunun onun regiona ilk səfəri olduğunu qeyd edən səyyah bildirib. "Mən Qarabağı çox bəyəndim, təbiət, dağlar möhtəşəmdir. Buranın tarixi mənim üçün maraqlıdır".

### *Slovakiyalı səyyah:* "Ağdamda dağıdılmış binaları görmək məni məyus etdi"



"Ağdamda dağıdılmış binaları görmək məni məyus etdi. Ümid edirəm ki, bu şəhər ən qısa zamanda yenidən inşa olunacaq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri slovakiyalı səyyah Martina Sebova Ağdamda erməni vəhşilikləri ilə tanış olarkən deyib. O, Ağdam haqqında ətraflı məlumatlar öyrəndiyini qeyd edib. "Biz burada Ağdam Cümə məscidi haqqında da məlumatlar əldə etdik. İnanıram ki, gələcəkdə regionda sülh şəraiti hökm sürəcək", - deyə o bildirib.

## TARSİM Ağalı kəndində aqrar sığorta mexanizmi üzrə atılacaq addımlarla bağlı layihələr təqdim edəcək

Türkiyənin kənd təsərrüfatı sığortaları sistemi - TARSİM-in İdarə Heyətinin sədri Kərim Üstünün rəhbərliyi ilə nümayəndə heyəti işğaldan azad olunmuş Zəngilan rayonuna səfər edib.







AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti işğaldan azad olunmuş Zəngilan rayonunun kənd təsərrüfatı imkanları və Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi ilə tanış olublar. Qonaqlara məlumat verilib ki, "ağıllı kənd" layihəsi yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri kimi komponentlər üzrə icra edilir. Ərazidə 200 fərdi yaşayış evi, 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib. "Ağıllı kənd" əhalisinin şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə, o cümlədən dövlət xidmətlərinə rahat çıxışı olacaq. Kənddə yaradılacaq "Ağıllı kənd təsərrüfatı" sistemi üzrə müasir texnologiyalar əsasında tarla, bağ və fermalar qurulacaq, burada meyvə, tərəvəz, ət və süd məhsulları istehsal ediləcək.

TARSİM-in İdarə Heyətinin sədri Kərim Üstün AZƏRTAC-a müsahibəsində deyib: "Bu gün qardaş Azərbaycanın işğaldan azad olunan torpaqlarında olmaqdan çox xoşbəxtəm. "Ağıllı kənd" layihəsi çərçivəsində həyata keçirilən işləri görəndə çox təsirləndim. Buradan qovulmuş sakinlərin yenidən öz yurdlarına geri dönüb yaşamaları o insanlar üçün böyük xoşbəxtlikdir". K.Üstün bildirib ki, TARSİM rəhbərliyinin Zəngilana, Ağalı kəndinə səfərində məqsəd Türkiyənin bu layihəyə dəstək imkanlarını, o cümlədən aqrar sığorta mexanizmi üzrə atılacaq addımları araşdırmaqdır: "Fikirlərimizi dəyərləndirərək layihələrimizi təqdim edəcəyik. Təbii ki, burada normal şərait, əraziyə uyğun su təminatı mövcuddur. Müasir texnologiyalar ilə bunları birləşdirib işlərimizi həyata keçirə bilərik. İnsanların burada sağlam yaşamasına bizim də köməyimiz olacaq".

TARSİM-in İdarə Heyətinin sədr müavini Mete Gülerin, İdarə Heyətinin üzvü və baş meneceri Serpil Günalın, İdarə Heyətinin üzvü Bekir Engürülünün və baş direktorun müavini Tufan Özelin də daxil olduğu nümayəndə heyətini Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov və fondun digər rəsmiləri müşayiət ediblər.

# REGİONLAR



## Vətən Müharibəsi Qəhrəmanı şəhid Veysəl Musibovun xatirəsi anılıb

**Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərə qatılan və şəhidlik zirvəsinə yüksələn şəhidlərimizin xatirəsi Abşeron rayonunda da daim əziz tutulur. Onlardan biri də Veysəl Musibovdur.**

Veysəl Musibov ölümündən sonra Prezidentin sərəncamları ilə Vətən Müharibəsi Qəhrəmanı adına, eləcə də "Vətən Uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

Bu günlər rayon rəhbərliyi və ictimaiyyətinin nümayəndələri Xırdalan şəhərindəki Şəhidlər xiyabanında kəşfiyyatçı kapitan Veysəl Musibovun məzarını ziyarət etmişlər. Sonra onlar qəhrəmanın adını daşıyan Xırdalan şəhər 5 nömrəli tam orta məktəbdə onun adına qurulan guşəsinin açılışında iştirak ediblər. Məktəbin şagirdlərinin hazırladıqları bədii kompozisiyada qəhrəman kəşfiyyatçının həyatından, döyüş yolundan və göstərdiyi şücaətlərdən danışılıb, vətənə, qələbəyə aid şeirlər səsləndirilib.

Rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev çıxış edərək Veysəl Musibovun büstünün hazırlandığını, yaxın zamanlarda



məktəbin həyətində qoyulacağını bildirib. Həmçinin qeyd edib ki, Xırdalanda qəhrəmanın adını daşıyan küçədə hazırda abadlıq işləri aparılır.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Naxçıvan Diaqnostika Müalicə Mərkəzində mürəkkəb cərrahi əməliyyat aparılıb

Naxçıvan Diaqnostika Müalicə Mərkəzində mürəkkəb cərrahi əməliyyat aparılıb. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bir neçə gün əvvəl belindən sol aşağı ətrafa yayılan şiddətli ağrı və keylik şikayətləri ilə Naxçıvan Diaqnostika Müalicə Mərkəzinə müraciət edən xəstədə L5-S1 fəqərəarası diskin yırtığı aşkar edilib. Mərkəzin həkim-neyrocərrahı Vüqar Verdiyev tərəfindən xəstəyə "L5-S1 diskektomiya, sekvestrektomiya (əsas diskdən qopub onurğa kanalına düşmüş disk parçasının çıxarılması)" diaqnozu qoyulub.

Ümumi narkoz altında əməliyyat zamanı mikroskopdan istifadə edilərək dəridə 3-4 santimetr uzunluğunda kəsik aparılıb. Fəqərəarası seqmentin minimal rezeksiyası ilə disk yırtığı xaric olunub.

Əməliyyatdan sonra xəstənin ağrısı tam keçib və ağrı səbəbindən yaranmış hərəkət çətinliyi aradan qalxıb. Xəstə 2 gün həkim nəzarətində saxlanıldıqdan sonra ağrılardan azad olmuş şəkildə yola salınıb.

Beləliklə, Naxçıvan Diaqnostika Müalicə Mərkəzində növbəti mürəkkəb cərrahi əməliyyata imza atılıb.

Qeyd edək ki, son illər Diaqnostika Müalicə Mərkəzində peşəkar tibbi kadrların sayı artmaqdadır. Onlardan biri də neyrocərrah Vüqar Verdiyevdir. Vüqar həkim ötən il aprelin 23-dən bu müəssisədə fəaliyyət göstərir. Qısa müddətdə baş-beyin və onurğa beyin törəmələri, bel, boyun və döş fəqərələrarası disk yırtıqları, spinal cərrahiyyə, fəqərə sürüşmələri və digər mürəkkəb cərrahi əməliyyatların aparılmasına nail olub.

## İsmayıllıda şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına medallar təqdim olunub

İsmayıllıda Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan igidlərimizə və Vətən müharibəsi iştirakçılarına verilmiş medalların təqdimetmə mərasimi keçirilib.



Mərasimdə rayon icra hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin məsul işçiləri, şəhidlərin ailə üzvləri, qazilər, Qarabağ müharibəsi veteranları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət evində keçirilən təqdimetmə mərasimində öncə Dövlət himni səsləndirilib, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Nahid Bağırov 2020-ci il sentyabrın 27-də başlanan, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gündə başa çatan Vətən müharibəsində qazanılan tarixi qələbədən, bu qələbədə şəhidlərimizin, qazilərimizin, veteranlarımızın göstərdikləri şücaətdən danışıb, bu cür oğullar yetişdirən ailələrə təşəkkürünü bildirib. İcra başçısı işğal edilən torpaqlarımızın azad olunmasında fərqləndiklərinə görə təltif edilən hərbçiləri təbrik edərək şəhidlərimizə rəhmət diləyib, qazilərimizə isə tezliklə sağlamlıqlarına qovuşmalarını arzulayıb.

Sonra Prezidentin sərəncamları ilə təltif olunan 4 şəhid ailəsinə və bir qrup Vətən müharibəsi iştirakçısına medallar təqdim olunub.

Şəhid ailələri və Vətən müharibəsi iştirakçıları göstərilən diqqət və qayğıya görə Prezidentə minnətdarlıqlarını bildiriblər.

## Uğurlar davamlı olanda...

**Salyanda keçən il uğurlu nəticələr əldə olunmuşdur. Kənd təsərrüfatı, sənaye məhsulları istehsalı xeyli artmış, tikinti-quruculuq, abadlıq sahəsində nəzərdə tutulmuş tədbirlər həyata keçirilmişdir. O cümlədən kənd yolları yenidən qurulmuş, qaz çəkilişi işləri davam etmiş, əhalinin elektrik enerjisinə, içməli suya olan tələbatının ödənilməsi yaxşılaşmışdır. Arzudan arzu doğur, deyiblər. Salyanlılar keçənilki nailiyyətləri davam etdirməklə bu il də işə ürəklə başlamışlar. Uğurlu başlanğıc isə işin yarısı deməkdir.**









### *Pambıqçılıqda birinci yer əldən verilmir*

Hələ Sovetlər Birliyi zamanında Salyanda kənd təsərrüfatı, o cümlədən onun mühüm sahəsi olan pambıqçılıqda yüksək göstəricilər əldə edilmişdir. Ayrı-ayrı təsərrüfatlarda çalışan neçə-neçə pambıq ustası o dövrün ən yüksək titulu sayılan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, orden və medallarla təltif olunmuşlar. Onlar bu gün həyatda olmasalar da, xatirələri xeyirdə-şərdə ehtiramla anılır.

Sevindirici haldır ki, onların ənənələri bu gün də yaşayır, indiki nəsil tərəfindən davam etdirilir. Özü də təsərrüfatçılıqla, hər bir işi iqtisadi cəhətdən götür-qoy etməklə.

2021-ci ildə rayonda 1165 nəfər fermer, torpaq mülkiyyətçisi və sahibkar pambıq əkmiş, "MKT-İK", "P-Aqro", "Azərpambıq" şirkətlərinin rayondakı filialları ilə müqavilə bağlamışdılar. Həmin filiallar şumdan tutmuş yığıma kimi onların yanında olmuş, yüksək məhsul yetişdirilməsi üçün bütün zəruri tədbirləri görmüşlər. Aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsi nəticəsində qarşıya qoyulan hədəfə çatmaq mümkün olmuşdur. Hər hektardan 36,9 sentner pambıq toplanmışdır. Qeyd edək ki, Salyan pambıqçıları məhsuldarlığa görə 3-cü ildir birinciliyi əldən vermirlər. Bir çox fermerlər hətta rayon səviyyəsindən də xeyli artıq, yəni hər hektardan 52-58 sentner məhsul götürməyə nail olmuşlar. Alim Eyvazov, Balaş Əhmədov, Arif Cəlilov, Telman Məmmədov, Hacıbaba Əhmədov belələrindəndirlər.

Pambıqçılıqda qazanılan uğurlar ilk növbədə, dövlətin kənd təsərrüfatına, o cümlədən pambıqçılığa verdiyi dəyərin nəticəsidir. Subsidiyalar, güzəştli qaydada verilən mineral gübrələr, xam pambığın satınalma qiymətinin artırılması, şirkətlərin mülkiyyətçilərə yaxından kömək etməsi və digər səbəblər bu sahədə ciddi dönüş yaratmışdır. İndi kəndli pambıq əkməyə daha çox üstünlük verir. Bilir ki, pambıq ona yaxşı gəlir gətirməklə yanaşı, həm də torpağı saflaşdırır, növbəli əkinə şərait yaradaraq sahibkara torpaqdan daha artıq məhsul götürməyə kömək edir. Pambıq eyni zamanda əmək tutumlu sahədir. Hektarın artırılması hesabına bu sahədə çalışanların da sayı çoxalır. Keçən il rayon üzrə pambıqçılıqda təxminən 6 min 500 nəfər çalışmışdır. Əldə olunan gəlir isə 13,6 milyon manat olmuşdur. Bir məsələni də qeyd edək: istehsalçı yetişdirdiyi məhsulu satmaqda, demək olar ki, heç bir çətinliklə qarşılaşmır. Bağladığı müqaviləyə əsasən, yığdığı pambığı şirkətə təhvil verib gün ərzində pulunu alır. Bu isə indiki zamanda sahibkar üçün çox böyük üstünlükdür. Elə kənd təsərrüfatı istehsalçıları vardır ki, ağır zəhmətlə yetişdirdikləri bəzi məhsulları satmaqda çətinlik çəkirlər, onu hansısa işbaza dəyər-dəyməzinə verməli olurlar. Bu dediklərimiz pambıqçılığa marağı artırır.

Cari il Salyanda 1251 nəfər sahibkar 8 min 340 hektarda pambıq əkməyi planlaşdırmışdır. Bunun üçün onlar artıq müqavilə bağlamışlar. İndi sahələr ikinci dəfə şum edilir. Bu günlərdə həmin sahələrə yaz aratı üçün su buraxılacaq. Martın sonu - aprelin əvvəllərindən çiyid səpini start götürəcək. Səpini mütəşəkkil və optimal müddətdə keçirmək üçün kifayət qədər keyfiyyətli toxum və mineral gübrələr tədarük edilmiş, istifadə olunacaq traktorlar, malalar, səpin aqreqatları, eləcə də digər mexanizmlər saz hala gətirilmişdir.

### *İstixana təsərrüfatları ixracı artırır*

Zəhmətə qatlaşsan, torpaq əvəzini verəcək. Özü də təkcə yay, payız fəsillərində deyil, bütün il boyu. İstixanalar buna əyani sübutdur.

SSRİ-nin süqutunadək bütün bölgələr kimi, Salyanda da belə təsərrüfatlar yox idi. Heç kəsin də ağlına gəlməzdi ki, haçansa istixanalar yaradılacaq və orada pomidor, xiyar, başqa tərəvəz yetişdiriləcək. O zaman Salyanda yalnız pambıq və taxıl əkilirdi. Müstəqillik bərpa edildikdən, bazar iqtisadiyyatına keçdikdən, torpaqlar əhaliyə paylandıqdan sonra istixana təsərrüfatları yaratmaq da mümkün oldu.

Primitiv şəkildə yaranan ilk istixanalar zaman keçdikcə təkmilləşdirildi. Hər bir şəraiti olmaqla borulardan hazırlanan istixanalar taxtadan qurulan köhnə çardaqları əvəz etdi. Bu gün sənaye təməli əsasında yaradılan bu istixanalarda yetişdirilən məhsullar daxili bazarlarda satılmaqla yanaşı, xaricə, xüsusən də Rusiya Federasiyasının ayrı-ayrı şəhərlərinə göndərilir.

Hazırda rayon üzrə 420 nəfər sahibkar bu işlə məşğul olur. Onlar keçən il 18 min 661 ton tərəvəz yetişdirmişlər ki, bunun da 1834 tonu xiyar, 16 min 811 tonu pomidor, 5 tonu bibər, qalanı isə digər məhsullar olmuşdur. Bu cür təsərrüfatlar, əsasən, Qaraçala, Qarabağlı, Yolüstü və Kərimbəyli kəndləri ərazisindədir. İstixanada çalışanlar da həmin kəndlərin sakinləridir.

Məlum olduğu kimi, pomidor ölkəyə valyuta gətirən əsas məhsullardan biridir. O üzdən hökumət bu işlə məşğul olan sahibkarları dəstəkləyir. Onlara güzəştli kreditlər verilir, təsərrüfatları fasiləsiz təbii qaz, elektrik enerjisi, su ilə təmin olunur.

### *Əhali kommunal xidmətlərin səviyyəsindən razıdır*

Salyan şəhəri ildən-ilə böyüyür, daha abad olur. Şimal istiqamətindən Kür çayı üzərindəki körpünü aşan kimi adamın gözləri qarşısında yeni və gözəl bir mənzərə açılır. Bu ərazidə Olimpiya İdman Kompleksi, Qarabağ müharibəsi, Çernobıl şəhidlərinin ailələri üçün tikilmiş beşmərtəbəli yaşayış evi, Bayraq meydanı, park əraziyə xüsusi görkəm verir. Bu mənzərə Salyana ilk dəfə gələn hər kəsə burada tikinti-quruculuq, abadlıq işlərinin planlı şəkildə aparıldığından xəbər verir.

Hazırda burada "ASAN xidmət" üçün üçmərtəbəli müasir bina ucaldılır. İstifadəyə verildikdən sonra təkcə Salyana deyil, həm də yaxın rayonların əhalisinə xidmət edəcək. Yaxın günlər ərazidə daha bir binanın - Qida Təhlükəsizliyi Agentliyinin regional idarəsi üçün binanın təməli atılacağı gözlənilir.

Keçən il yol infrastrukturunun yeniləşməsi ilə əlaqədar nəzərdə tutulan tədbirlər də diqqət mərkəzində olmuşdur. Regionların sosial-iqtisadi inkişafı IV Dövlət Proqramı çərçivəsində 5 yaşayış məntəqəsini - Kürqaraqaşlı, Beştalı, Cəngən, Xocalı, Ərəbqardaşbəyli kəndlərini birləşdirən 15,3 kilometrlik yol yenidən qurulmuşdur. Təmir edilən asfalt yol həmin kəndlərdə yaşayan 2,7 min nəfərin gediş-gəlişini asanlaşdırmışdır.

Əhalinin təbii qazla təminatı da yaxşılaşır. Bu çərçivədə Salyan şəhərində, eləcə də Arxarası, Qaraçala, Qarabağlı yaşayış məntəqələrində, Abad və Xələc kəndlərində qaz xətləri dəyişdirilmiş, Yolüstü kəndi qazlaşdırılmışdır. Hazırda isə Xocalı kəndinə qaz xətti çəkilir.

Elektrik enerjisinə gəldikdə, keçən il Sarvan kəndindəki yarımstansiya yenidən qurulmuş, Salyan şəhərində, habelə Sarvan, Noxudlu, Arbatan, Kürkənd kəndlərindəki transformator məntəqələri təmir olunmuş, Şorsulu, Noxudlu, Dayıkənd kəndində transformator məntəqələri yaradılmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Yanvarda Qəbələnin hotel və mehmanxanaları 6 mindən çox turistə xidmət göstərib

Bu ilin yanvarında Qəbələ rayonundakı hotel və mehmanxana tipli müəssisələrə 6194 nəfər yerli və əcnəbi turist yerləşdirilib. Onların 4352 nəfəri və ya 70,3 faizi Azərbaycan, 1842 nəfəri və ya 29,7 faizi xarici ölkə vətəndaşı olub.

Bu barədə AZƏRTAC-a Qəbələ Rayon Statistika İdarəsindən məlumat verilib. Bildirilib ki, yanvarda Qəbələnin hotel və mehmanxana tipli müəssisələrinə yerləşdirilən yerli və əcnəbi turistlərin sayı 2021-ci ilin eyni dövrü ilə müqayisədə 1277 nəfər və ya 26 faiz artıb. Yanvarda yerli turistlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 415 nəfər və ya 8,7 faiz azalsa da, əcnəbi turistlərin sayında 1692 nəfər və ya 22 dəfədən çox artım qeydə alınıb.

İdarədən verilən məlumata əsasən, cari ilin yanvarında Qəbələyə gələn əcnəbi turistlər arasında Səudiyyə Ərəbistanının vətəndaşları üstünlük təşkil edib. Belə ki, ilin birinci ayında bu ölkənin 718 vətəndaşı Qəbələdə olub. Ümumiyyətlə, bu ilin yanvarında Qəbələyə Birləşmiş Ərəb Əmirliklərindən 362, Rusiyadan 244, Türkiyədən 102, Küveytdən 82, Hindistandan 41, Bəhreyndən 36, Qətərdən 27, Omandan 25, Ukraynadan isə 22 nəfər turist gəlib. Gələnlərin 183 nəfəri isə digər ölkələrin vətəndaşları olub.

## Şəmkirin turizm imkanları və bu istiqamətdə yeni layihələr müzakirə edilib

**Şəmkir Rayon İcra Hakimiyyətində rayonun turizm imkanları və bu istiqamətdə qarşıda duran vəzifələrə həsr olunmuş görüş keçirilmişdir.**

Rayon icra hakimiyyəti əməkdaşlarının, Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun qərb regional strukturu olan Gəncə Turizm İnformasiya Mərkəzi və Destinasiya Menecmenti Təşkilatının direktoru Zaur Bayramovun iştirak etdikləri görüşdə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamdan irəli gələn vəzifələrdən danışmış və diqqətə çatdırmışdır ki, bu sərəncam ölkəmizdə turizmin inkişafı ilə bağlı qarşıya yeni məqsəd və vəzifələr qoyur. Bu tədbirlərin ölkə üzrə balanslaşdırılmış şəkildə həyata keçirilməsi, mövcud potensialın hərəkətə gətirilməsi regionların sosial-iqtisadi inkişafının yüksəlməsinə, habelə Azərbaycanın daha geniş turizm bazarlarına inteqrasiya etməsinə şərait yaradır.

Görüşdə o da bildirilmişdir ki, Şəmkir turizmin inkişafı üçün geniş imkanlara malik və əlverişli iqlim şəraiti olan bölgələrdəndir. Rayonun iqlimi, təbiəti turizmin inkişafı, il boyu fəaliyyət göstərən istirahət və turizm mərkəzlərinin yaradılması üçün çox əlverişlidir. Qədim tarixə və mədəniyyətə malik bu diyarın hər bir guşəsi turistlər üçün əsl istirahət məkanıdır. Qədim yaşayış məskənlərindən olan Şəmkir tarixi abidələri ilə də diqqəti cəlb edir. Rayonda turistlərin gəzib görə biləcəyi çox yerlər var. Əsasən də əcnəbi səyahətsevərləri rayonda




qorunan alman irsi maraqlandırır. Şəmkir şəhəri də alman koloniyası Annenfeldin əsasında salınıb. Almanlar 1941-ci ildə Şəmkirdən sürgün edilsələr də, şəhərin mərkəzi bu gün də bənzərsiz alman atmosferini qoruyub saxlaya bilib. Orijinal alman evlərinin yerləşdiyi uzun düz küçələr, tarixi 1909-cu ildən başlayan Lüteran kilsəsi, alman parkları xüsusən alman turistləri üçün çox cəlbedicidir.

Görüşdə turizmlə bağlı müxtəlif layihələr ətrafında fikir mübadiləsi aparılmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Hərbi hissələrin döyüşə hazırlıq vəziyyəti yoxlanılıb






Azərbaycan Respublikası müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının, o cümlədən Hərbi Dəniz Qüvvələrinin hərbi hissə və birləşmələrində bölmələrin döyüşə hazırolma vəziyyəti qəfil yoxlanılıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yoxlamalar zamanı "Həyəcan" siqnalı ilə qaldırılaraq təyinat rayonuna çıxarılan tank bölmələrinin tapşırıqları dəqiqləşdirilib. Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları və hərbi gəmilərin heyətləri tərəfindən Xəzər dənizinin Azərbaycana məxsus sektorunda əməliyyat şəraiti, eləcə də strateji təyinatlı infrastrukturların mühafizəsi üzrə döyüş tapşırıqları barədə məruzələr dinlənilib.

Yoxlamaların keçirilməsində əsas məqsəd qoşun növü bölmələrinin qarşılıqlı əlaqədə döyüşə hazırolma vəziyyətinə gətirilmə vərdişlərinin, eləcə də komandir heyətinin yaranmış şəraitə uyğun vəziyyəti qiymətləndirmə və çevik qərar qəbuletmə bacarıqlarının təkmilləşdirilməsidir.

# Ümumilikdə 263 müharibə əlili yüksək texnologiyalı 276 protezlə təmin edilib





Prezident İlham Əliyevin tapşırığına əsasən, müharibə əlillərinin yüksək texnologiyalı müasir protezlərlə təminatı sahəsində ardıcıl işlər aparılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2020-ci ilin dekabr ayında bu istiqamətdə işlərə başlanılıb.

Ötən dövrdə 44 günlük Vətən müharibəsinin 188 qazisi 196 ədəd yüksək texnologiyalı müasir 4-cü nəsil protezlə təmin olunub.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, I Qarabağ müharibəsində, Vətən müharibəsinə qədərki dövrdə hərbi əməliyyatlarda, habelə hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi müəyyən olunmuş 75 hərbçinin də 80 ədəd həmin protezlərlə təminatı həyata keçirilib. Beləliklə, 263 müharibə əlili yüksək texnologiyalı 276 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib.

Həmin protezlərlə təminat nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində həyata keçirilir.

Təqdim edilən "Genium" tipli yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. Həmin protezlər istifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir.

# Müdrikliyi, vətənpərvərliyi ilə öndə olan ziyalı

Müdrik insan haqqında söz demək çox çətindir. Beləléri barəsində danışmaq istəyəndə ona layiq ifadə və kəlamları çox ehtiyatla seçir, tutarlı fikirlər söyləməkdən çəkinmirsən. Yaxşı tanıdığın həmin şəxsin sənin deyəcəyin qiymətli sözdən də uca olduğunu bildiyin halda rahat nəfəs ala bilirsən.



Belə şəxsiyyətlərdən biri elminə, mədəniyyətinə, dünyagörüşünə, ələlxüsus sadəliyinə, səlis, axıcı, məntiqli nitqinə heyran olduğum, hər bir kəlamından incilər yağan, ulularımızın yolunu özünə müqəddəs yol seçən saf əqidə sahibi İzzət Əşrəf oğlu Rüstəmovdur. O, şan-şöhrət, xoş güzəran xatirinə kimsəyə baş əyməyən azərbaycanlı kişisidir! İzzət müəllimin elmi potensialının çox yüksək olduğunu hamı etiraf edir - ziyalılar da, akademiklər də, bütün ictimaiyyət də. O, böyük alim, görkəmli tədqiqatçıdır.

İzzət Rüstəmov 1932-ci ildə Gədəbəy rayonunun Şınıx mahalının Düz Rəsullu kəndində, zəhmətkeş kəndli ailəsində anadan olmuşdur. İzzət müəllim Düz Rəsullu kəndində 7-illik məktəbi bitirdikdən sonra təhsilini Çay Rəsullu məktəbində davam etdirmişdir. Onun orta məktəb şagirdi olduğu illər asan keçməmişdir. Çox böyük çətinliklərə sinə gərən İzzət Rüstəmov müəllimlərinin sevgisini və etimadını qazanmış, onların istəkli şagirdlərindən olmuşdur. Orta məktəb illərində fitri istedadını görən bütün müəllimləri onu gələcəyin böyük elm adamı kimi təsəvvür etmişlər.

Orta məktəbi qızıl medalla başa vuran İzzət müəllim beləliklə məşhur alim olmuşdur. O, 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tarix fakültəsinin nəzdindəki Fəlsəfə şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin ildən ADU-nun Fəlsəfə kafedrasında əmək fəaliyyətinə başlamışdır. İzzət müəllim bu günə qədər müxtəlif vəzifələrdə çalışmış, baş nazirin müavini vəzifəsinə qədər yüksəlmişdir.

Ömrün müdrik və kamillik dövrünü yaşayan bu insan həyatı, şəxsi və ictimai fəaliyyəti, yaradıcılıq ustalığı, qüdrətli tədqiqatçı-alim, eyni zamanda səliqə-səhmanı, insanlara məhəbbəti, qayğısı, sevgisi, gözəl ünsiyyəti ilə başqalarına örnək olan bir ocağın böyük bir məktəbin təmsilçisidir.

İzzət müəllimin sadəliyi, elmi zənginliyi tələbələrinə, dostlarına və yoldaşlarına, oxucularına, onu dinləyənlərə sirayət etməsi, onları sadə, təvazökar olmağa çağırması bu insanın müdrikliyindən irəli gəlir.

Bu gözəl, səmimi insanı tam kəşf etmək üçün onu böyük məsafədən müşahidə etmək lazımdır. Böyüməkdə olan gənc nəslin onun kölgəsində sığınmağa ehtiyacı var. Bu insan müxtəlif vəzifələrdə işləsə də, həmişə müəllim adını büllur, saf bulaq kimi qoruyub saxlamışdır. O, müəllim adını sevmiş, sevdirməyi də bacarmışdır. Bu gün 90 yaşını qeyd etdiyimiz İzzət Rüstəmov və onun silahdaşları da yaxşı bilirlər ki, yaşadığımız dövrdə həllini gözləyən ziyalı və zaman problemi demək olar ki, aktuallığını qoruyub saxlamaqdadır. Düşündükcə anlayırsan ki, insan intellektindən, onun mənəvi zənginliyindən qiymətli heç nə yoxdur, çünki cəmiyyətin tərəqqisi və firavan gələcəyi də intellektual, özünə hörmət edən ziyalılardan asılıdır.

Azərbaycan xalqının dünya dövlətləri arasında yüksək nüfuza sahib olması insan intellektinə, vətənpərvər ziyalılara bağlıdır. Bu bir həqiqətdir ki, alimin, ziyalının gücü onun dünyagörüşündə, elmində, iradə və əqidəsindədir. Əsl ziyalı yaşadığı mühitin hakiminə çevrilməlidir. İzzət Rüstəmov vaxtilə baş nazirin müavini olmuş dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor, adı ABŞ Konqresinin kitabxanasındakı kataloqa daxil edilmiş azərbaycanlıdır. Bu alim hər zaman Azərbaycan xalqının kimliyini, böyüklüyünü elmi araşdırmaları ilə təsdiq edən bir şəxsiyyətdir.

Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixinə aid çox sayda əsərlərin müəllifi kimi tanınan İzzət Rüstəmovun elmi simasını, əzəmətini, vüqarını qoruyub saxlayan bir şəxsiyyət olması danılmazdır. Düşünürəm ki, onun elmdə, ictimai fəaliyyətdə qazandığı uğurlar valideynlərindən ona irsən keçən istedadla yanaşı, həm də əməksevərliyinin, zəhmətkeşliyinin bəhrəsidir.

Azərbaycan Respublikası yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və sosial psixologiya kafedrasının müdiri, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi mərhum Tofiq Rəsulovun İzzət müəllimin ünvanına dediyi bir fikri xatırlatmaq istəyirəm: "İzzət Əşrəf oğlu Rüstəmov özünəməxsus təkrarsız yaradıcılığı, insani keyfiyyətləri ilə fərqlənən şəxsiyyətdir. Azərbaycançılığa, köklərə bağlı bir insandır. Onun atası Əşrəf Məşədi Rüstəm oğlu hazırcavab, Şərq mifologiyasını, milli nağıllarımızı nəql etmək qabiliyyətinə malik, yumor hissi ilə başqalarından fərqlənən zarafatcıl bir kişi idi. Anası Tavat xala da şux qamətli, şirin söhbətli bir qadın idi".

Bu bir həqiqətdir ki, İzzət müəllimin şəxsiyyətinin ümdə cəhətlərini tam şəkildə göstərmək də böyük məsuliyyət və bacarıq tələb edir. Görkəmli alim geniş diapazonlu, yüksək erudisiyalı elm xadimidir.

Hər kəs yaxşı bilir ki, alimin, ziyalının xalq qarşısında xidmətləri onun yazdığı əsərləri, yetişdirdiyi tələbələri ilə qiymətləndirilir.

İzzət müəllimin mətbuata müsahibələrinin birində dediklərini nəzərinizə çatdırmaq istəyirəm: "Dünyada heç nə asanlıqla əldə olunmur. Mən Azərbaycanın ən füsunkar bölgələrindən biri olan Gədəbəyin Düz Rəsullu kəndində dünyaya göz açmışam və ağlım kəsəndən zəhmətkeş, əməksevər adamlar görmüşəm. Ümumiyyətlə, dağ adamları arı kimi çalışqan olurlar. Görünür, elə uşaqlıq illərində əxz elədiyim bu əməksevərlik, halallıq o vaxtdan canıma, qanıma hopub..."

İzzət müəllim mənim ağsaqqalım, yol göstərənimdir. İzzət müəllimlə söhbət edərkən onun ən çox sevdiyi mövzu təbiətlə birbaşa bağlı olur. Kəndimizdən, elimizdən, obamızdan söz düşəndə qeyd edir ki, Gədəbəyin təbiətini duymayan, onun dağına, daşına, suyuna yaxından bələd olmayan, buz bulaqlarından doyunca su içməyən, gülünün, çiçəyinin ətrini sinəsinə çəkməyən, kəkotulu çayından içməyən insanlara tövsiyəm odur ki, Gədəbəyə gəlsinlər!..

İzzət müəllimin həmişə təkrarladığı ana dilimizin zənginliyinə, incəliklərinə yaraşan bir kəlamı da oxucularla bölüşmək istəyirəm: "Bulaqların zümzüməli səsi ömrümüzə, günümüzə elə daxil olmuşdu ki, onun tilsimindən ayrılmaq çox çətin idi". Onu tanıyanlar deyirlər ki, İzzət müəllim ayrı-ayrı məsələlərə öz prinsipial mövqeyi, elmi səviyyəsi və elmi potensialı baxımından qiymət verən tanınmış alimdir. Onun güclü və təkzibolunmaz məntiqi müxtəlif məsələlərdə irəli sürdüyü fikir və mühakimələrinə tamlıq və inkaredilməz bir mahiyyət aşılayır. İzzət müəllim barəsində bir insan, şəxsiyyət və alim-pedaqoq kimi düşünəndə adamın qəlbi işıqlanır. İzzət Rüstəmov öz xalqını, torpağını, elini, yurdunu dərin məhəbbətlə sevən, özündə vətən və xalq dərdi yaşadan bir ziyalı olduğunu görürük.

90 yaşını qeyd etdiyimiz bu böyük insan həm də Azərbaycan Respublikasının Milli Qəhrəmanı Məzahir İzzət oğlu Rüstəmovun atasıdır!

Hər bir vətənpərvər adamın torpaq və millət naminə əvəzsiz fəaliyyət göstərmək bir vətəndaşlıq borcu olsa da, Məzahir Rüstəmov kimi layiqli oğullar yetişdirmək hər valideynə qismət olmur.

Bütün şəhid valideynlərinə dözümlü, səbirli olmağı arzu edirəm!..

Mənim üçün çox böyük şərəfdir ki, ağsaqqalım, ustadım İzzət müəllim barədə mötəbər məclisdə söz demək mənə də qismət oldu. Şəxsiyyətinə və ismətinə həmişə hörmət etdiyim Qızılgül xanıma təşəkkür borcluyam.

***Rüfət RÜSTƏMOV,***
***BDU-nun Şərqşünaslıq fakültəsi, Türk filologiya kafedrasının müdiri, filologiya elmləri doktoru, professor***

# Ön cəbhənin döyüşçüsü, arxa cəbhənin əmək veteranı

Haqqında dəfələrlə yazılıb, televiziya verilişlərinin qəhrəmanlarından biri kimi geniş auditoriyalara təqdim edilib. Çünki o, buna layiqdir. Axı, keçdiyi ömür və döyüş yolu keşməkeşliliyi ilə seçilir, zənginliyinə görə isə nümunə sayılır.



Söhbət Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Dəmir yolları şöbəsinin üzvü, müharibə veteranı Behbudov Nazim Möhü oğlundan gedir. Bu o Nazim Behbudovdur ki, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı çıxan, torpaqlarını, o cümlədən də doğulduğu Cəbrayıl rayonunu darmadağın edən erməni silahlılarına layiqli cavab vermişdi...

Onun ömür və əmək yoluna qısa nəzər salanda qocaman dəmiryolçunun vətənpərvərliyinin şahidi olursan. Nazim Behbudov 20 Yanvar 1990-cı ildə Bakıda və regionlarda Azərbaycan xalqına qarşı törədilən qanlı faciəyə biganə qalmamışdı. Təhsilini yarımçıq qoyaraq Şuşada yaradılmış ərazi özünümüdafiə dəstəsinə könüllü qoşulmuşdu.

Həmin illərdə sovet silahlı qüvvələri Qarabağın dağlıq hissəsində, eləcə də ətraf ərazilərdə ermənilərə hərtərəfli havadarlıq edirdilər. Buna baxmayaraq, Nazim Behbudov həyatını təhlükəyə ataraq, əsasən də polislərdən (ozamankı milislərdən) ibarət zəif silahlanmış ərazi özünümüdafiə dəstəsinin tərkibində erməni təcavüzkarlarına qarşı döyüşlərə qatılır.

O dövrlərdə əsasən mülki vətəndaşların təhlükəsizliyinin qorunmasında və azərbaycanlıların yaşayış məntəqələrinə erməni quldur dəstələrinin hücumlarının qarşısının alınmasında iştirak edən Nazim Behbudov yaradılmış postlarda keşik çəkirdi. Dəfələrlə açıq döyüşlərdə iştirak edən Nazim erməni silahlılarının hərəkətlərinə göz yuman, yaxud seyrçi mövqe sərgiləyən sovet silahlı qüvvələrinin, həmçinin də ovaxtkı hüquq-mühafizə orqanlarının yüksək çinli məmurlarına öz etirazını bildirməkdən belə çəkinmirdi. Hətta o, bu vətənpərvərliyinə görə bir neçə dəfə sovet silahlı qüvvələri və digər güc strukturları tərəfindən saxlanılmışdı. Təcridxanada işgəncələrə məruz qalan Nazimin hətta doğma Qarabağ bölgəsinə gəlməsinə hərbi komendantlıq tərəfindən qadağa da qoyulmuşdu.

Bundan sonra Nazim Behbudov qarşılaşdığı haqsızlıqlara dözməyib 1991-ci ildə doğma Cəbrayıl rayonuna qayıdır. Ərazidə erməni təcavüzkarlarına qarşı yeni yaradılan könüllü müdafiə dəstələrinə qoşulur.

1993-cü ilin yaz-yay aylarında odövrkü AXC-Müsavat iqtidarının səriştəsizliyi ucbatından respublikamızın ərazilərinin 20 faizi, o cümlədən Cəbrayıl rayonu erməni təcavüzkarları tərəfindən işğal olunur. Nazim Behbudov da ailəsi ilə birlikdə öz doğma torpaqlarından didərgin düşüb, məcburi köçkün kimi İmişli şəhərinə pənah gətirir. Qarşılaşdığı sosial-mənəvi sarsıntılara baxmayaraq, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin payızında torpaqlarımızın müdafiəsi üçün xalqa müraciətindən ruhlanaraq yenidən döyüşlərə qatılır. 1994-cü ilin əvvəlində həyata keçirilən uğurlu Horadiz hərbi əməliyyatında iştirak edir.

Atəşkəsdən sonra hərbi xidmətdən tərxis olunub dəmir yolu sahəsində əmək fəaliyyətinə başlayan Nazim Behbudov əzmkarlıqla çalışır. Üzvü olduğu kollektivin böyük rəğbətini qazanır, ictimai işlərdə fəal iştirak edir. Fədakarlığı nəticəsində adi fəhləlikdən idarə rəhbərliyinə kimi yüksələn Nazim Behbudov bacarıqlı, işgüzar və ali ixtisaslı kadr kimi "Azərbaycan Dəmir Yolları" QSC-nin Aparatına dəvət olunur.

Xatırladaq ki, Nazim Behbudov 2000-ci ildə Bakı Dəmir Yolu Nəqliyyatı Texnikumunu, 2005-ci ildə Bakı Dövlət İqtisad Kollecinin Hüquq fakültəsini və 2014-cü ildə Ukrayna Dövlət Dəmir Yolu Nəqliyyatı Akademiyasının Yol təsərrüfatı fakültəsini bitirmişdir. Dəmir yolunda aparılan layihələrin həyata keçirilməsində və sahə üçün vacib olan texniki ədəbiyyatların hazırlanmasında bilavasitə iştirak edib.

2016-cı ildən Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Dəmir yolları şöbəsinin üzvüdür. Əslində, şöbənin yaranmasında fəal iştirakçı olub. Həyata keçirilən vətənpərvərlik yönümlü tədbirlərdə bu gün də seçilir. 2012-ci ildə "Fəxri dəmiryolçu" döş nişanı ilə təltif olunub.

Dövlətçilik ənənələrinə sadiqlik göstərən, həmçinin məntəqə seçki komissiyasının üzvü kimi də fəallığı ilə seçilən qocaman dəmiryolçunun əməyi dövlət tərəfindən yüksək qiymətləndirilib: 2018-ci ilin fevralında Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən, "Tərəqqi" medalı ilə təltif olunub.

2018-ci ildə AVMVİB-nin yaranmasının 25 illik yubiley medalına layiq görülüb. Qəlbi vətənpərvərlik hissilə döyünən Nazim Behbudov bir neçə dəfə ön cəbhəyə əsgərlərə sovqat aparmaqla təsəlli tapıb. Erməni təcavüzkarlarının işğalı altında olan doğma torpaqlarımızın azad olunmasında keçmiş döyüşçü veteran kimi ön cəbhədəki əsgərlərimizə göstərdiyi mənəvi dəstəyə görə AVMVİB-nin "Böyük Zəfər" xatirə medalı ilə də təltif edilib.

Nazim Behbudovun həm ön, həm də arxa cəbhədəki fəaliyyəti orden və medallarla qiymətləndirilib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində Alvize Kazellatinin dirijorluğu ilə konsert veriləcək

Martın 4-də Heydər Əliyev Mərkəzində tanınmış italiyalı dirijor Alvize Kazellatinin rəhbərliyi ilə konsert proqramı təqdim olunacaq.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin Auditorium zalında keçiriləcək gecədə Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, solist Emil Bağırov (klarnet) Lüdviq van Bethoven, Volfqanq Amadey Motsart, Pyotr Çaykovski kimi dahi musiqiçilərin əsərlərini ifa edəcək.

Alvize Kazellati dirijor kimi ilk dəfə 2011-ci ildə Venesiyada "Teatro La Fenice" səhnəsində çıxış edib. Musiqiçi son bir neçə ildə bir çox festivallarda iştirak etmək üçün dəvət alıb, İtaliyanın bir sıra məşhur opera teatrları ilə əməkdaşlıq edir.

Alvize Kazellati həmçinin 2017-ci ildə təsis edilən "Opera İtaliana is in the Air" layihəsinin yaradıcısı və musiqi rəhbəridir. Layihənin əsas məqsədi gənc dinləyiciləri İtaliyanın opera irsinə cəlb etmək, italyan operasının hamı üçün əlçatanlığını təmin etməkdir. Konsertdə solist kimi çıxış edəcək klarnet ifaçısı Emil Bağırov 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin təqaüdünə, 2017-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin mükafatına layiq görülüb. 2012-ci ilin dekabr ayında Təl-Əviv şəhərində keçirilən beynəlxalq musiqi yarışmasında "Ən yaxşı ifaçı" seçilib. 2013-cü ildən Azərbaycan Dövlət Simfonik Orkestrinin artistidir. 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə musiqi sahəsində xüsusi istedadına görə adı gənc istedadların "Qızıl kitabı"na yazılıb və gənc istedadların xüsusi təqaüdünə layiq görülüb.

Martın 4-dəki konsertə biletləri Heydər Əliyev Mərkəzinin kassasından, "iTicket.az" saytı və kassalarından əldə etmək olar. Zala giriş COVID-19 pasportu (COVID-19-a qarşı peyvənd sertifikatı və ya COVID-19-a qarşı immunitet sertifikatı) ilə mümkündür.

**◆ Dünya gündəmi**

# Avropada qaz ehtiyatları tükənib

## Yüksək sərfiyyat nəticəsində təchizatla bağlı problemlər başlaya bilər

Avropanın yeraltı anbarlarında 35 milyard kubmetr qaz qalıb. Sərfiyyat daha iki aya yaxın davam edəcək. Fevralın 15-nə olan ehtiyatlar son beş il ərzində orta səviyyədən 13 faiz aşağıdır. Bu barədə "Gas Infrastructure Europe" Assosiasiyası məlumat verib.




Qeyd edilir ki, 2022-ci ilin fevral ayında maye qazın idxalı ötən ilın müvafiq dövrü ilə müqayisədə iki dəfə artıb. Öz növbəsində, Rusiyanın qaz inhisarçısı "Qazprom" bir qədər artımdan sonra ötən gün Ukrayna vasitəsilə gündəlik qaz nəqlinin həcmini yenidən azaldıb. Bu barədə "İnterfaks" Agentliyi xəbər verir. Məlum olub ki, "Qazprom" mart ayında Ukrayna və Polşa ərazisindən əlavə tranzitdən imtina edib. Ötən həftə isə şirkət 2022-ci ilin II və III rübləri üçün əlavə tranzit həcmlərini bronlaşdırmayıb.

Qeyd edək ki, Avropada qazın qiyməti bu gün min kubmetr üçün 800 dollara düşüb. Bu, Rusiya Prezidenti Vladimir Putin və Almaniyanın Kansleri Olaf Şoltsun danışıqlarının yekunlarına dair bəyanatlar fonunda baş verib.

Belə ki, 3 saatdan çox davam etmiş danışıqlarda mövzulardan biri energetika, o cümlədən "Şimal axını-2" və Ukrayna vasitəsilə qaz təchizatı olub.

"Biz Ukrayna vasitəsilə qazın nəqlini hətta 2024-cü ildən sonra da davam etdirməyə hazırıq. Təbii ki, bunu Avropa idxalçıları istəyərsə və bu, rentabelli olarsa... Ukraynanın qaz nəqli sistemi də texniki cəhətdən işlək vəziyyətdə olmalıdır", - deyə Putin bildirib.

Rusiya liderinin dediyinə görə, "Şimal axını-2"nin siyasi rəngi yoxdur, o, Avropada enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə yönəlib.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***



# 6 gündə 7 mühüm elektrik enerjisi obyekti!

*Əvvəli 1-ci səh.*

Çünki artan tələbat - həm daxili tələbat, həm xarici tələbat, artan ixracımız bunu diktə edir".

Azərbaycanda demoqrafik mənzərə müsbətdir, əhali getdikcə çoxalır. Eyni zamanda sənaye istehsalı da sürətlə artır. İşğaldan azad edilmiş şəhər və kəndlərimizin sakinləri öz yurd-yuvalarına dönməyə hazırlaşırlar.Təbii ki, bütün bunlar artan generasiya gücləri tələb edir. Bundan əlavə, Azərbaycan 4 qonşu ölkəyə - Türkiyə, Rusiya, Gürcüstan və İrana elektrik enerjisi ixrac edir və onların da buna tələbatı artır. Başqa sözlə, yeni enerji obyektlərinin inşa edilməsi günün tələbidir.

Prezident İlham Əliyevin yeni stansiya və yarımstansiyaların açılışında iştirak etməsi onların hər birinin nə qədər önəmli olduğuna diqqət çəkir. Məsələn, yenidən qurulan və fevralın 8-də açılışı olan dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasını götürək. Bu enerji obyekti "Sumqayıt", "Qobu", "Xaçmaz" elektrik stansiyaları ilə birbaşa, "Azərbaycan" İstilik Elektrik Stansiyası və "Cənub" Elektrik Stansiyası ilə "Abşeron" yarımstansiyası vasitəsilə əlaqələndirildiyindən üzərinə çox mühüm strateji funksiya götürür. "Yaşma"nın "Qobu" Enerji Qovşağına, bu ilin yanvarında əsası qoyulan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası və tikintisinə başlanılacaq yeni "Yaşma" Elektrik Stansiyasının enerji sisteminə inteqrasiyasının həyata keçirilməsi üçün yeni yuvalar quraşdırılıb. Şimal-şərq rayonlarının və Abşeron yarımadasının enerji təchizatında müstəsna əhəmiyyət kəsb edən bu yarımstansiyada açıq paylayıcı qurğular sökülərək genişləndirilmiş formada yenidən qurulub. Burada hər birinin gücü 250 meqavat olan üç yeni avtotransformator quraşdırılıb. Nəticədə yarımstansiyanın ümumi gücü 110 meqavat artırılmaqla 750 meqavata çatdırılıb. "Qobu" Elektrik Stansiyasından "Yaşma" yarımstansiyasına 47 kilometr məsafədə 330 kilovoltluq ötürmə xətti çəkilib.

Eləcə də fevralın 11-də açılışında Prezidentin iştirak etdiyi iki enerji obyektindən ibarət "Qobu" Enerji Qovşağı - yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyası və 385 meqavatlıq "Qobu" Elektrik Stansiyası mühüm funksiyaya malikdir.





2020-ci ilin avqustunda təməli qoyulan bu enerji qurğuları rekord müddətdə tikilib. Azərbaycan energetikası tarixində ilk dəfə istilik elektrik stansiyasını xarici institutlar deyil, "Azərenerji" ASC-nin Layihə-Axtarış Energetika İnstitutu layihələndirib və tikintini də yerli şirkət həyata keçirib. Qeyd edək ki, burada tikilən yarımstansiya Bakıda inşa olunan ilk 330 kilovoltluq yarımstansiyadır.

"Qobu" Enerji Qovşağı ölkəmizdə, xüsusilə Bakıda və Abşeron yarımadasında elektrik enerjisinə sürətlə artan tələbatı ödəmək, paytaxtın və yarımadanın regionlardakı elektrik stansiyalarından asılılığını azaltmaq, elektrik enerjisi ilə təchizatın dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdırmaq, texniki itkiləri azaltmaq, sistem qəzası təhlükəsini minimuma endirmək baxımından olduqca əhəmiyyətlidir. Bakıda və Abşeron yarımadasında tənzimləyici generasiya gücü funksiyasını üzərinə götürərək 500 kilovoltluq "Abşeron" yarımstansiyasının əvəzedicisi funksiyasını daşımaq, paytaxtın 330 kilovoltluq dairəvi elektrik təchizat sistemini yaratmaq və digər amillər onun önəmini daha da artırır.

Təqdirəlayiq haldır ki, açılan yeni enerji obyektlərinin üçü işğaldan azad edilmiş ərazidə, biri isə onun qonşuluğunda yerləşir. Belə ki, fevralın 13-də Ağcabədi və Ağdam rayonlarına gedən dövlət başçısı bölgələrə səfərləri çərçivəsində yaranmış ənənəsinə sadiq qalaraq bu dəfə də bir sıra yeni müəssisələrin təməlini qoyub, açılışını edib. Həmin gün bu iki rayonda 4 elektrik enerjisi obyekti işə salınıb. Onlardan 3-ü düşmənin tarmar etdiyi Ağdamda qələbəmizdən sonra qısa müddətdə tikilib araya-ərsəyə gəlib. Biri isə sistem əhəmiyyətli "Ağcabədi" yarımstansiyasıdır.

40 il əvvəl tikilən, istismar müddəti sona çatan, artan tələbatı ödəyə bilməyən 110/35/10 kilovoltluq "Ağcabədi" yarımstansiyası genişləndirilərək rəqəmsal qaydada tam yenidən qurulub və onun gücü artırılıb. Burada yeni İdarəetmə Mərkəzi tikilib.

Yarımstansiya Ağcabədi şəhərində və rayon ərazisində yerləşən yaşayış məntəqələrini, meliorasiya, sənaye, sosial infrastruktur, ictimai-iaşə və digər obyektləri elektrik enerjisi ilə təchiz edəcək.

Ağdam şəhərində açılan "Ağdam-1" və "Ağdam-2" yarımstansiyaları, o cümlədən "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi işğaldan azad edilən ərazilərdə həyata keçirilən mühüm layihələrdəndir. Bu bir daha göstərir ki, Azərbaycan dövləti üçün yurd yerinə qayıdacaq insanların rahat və firavan yaşaması böyük önəm daşıyır. Belə ki, Ağdam rayonunun ölkənin ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən "Xındırıstan" yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib. Xətt tam minalanmış ərazidən keçib. Bu çətin iş bəzi yerlərdə minalar arasından bir neçə metr enində cığır açılaraq icra edilib.

Bir vacib məqam da odur ki, Ağcabədidən Xındırıstana, oradan da "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabel çəkilib. Bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti gətirilib.

Azərbaycanın elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradılıb. Rəqəmsal İdarəetmə Mərkəzinin binası Operativ Qərargahın şəhərsalma işçi qrupu tərəfindən təsdiq edilmiş müasir üslubda hazırlanmış memarlıq layihəsi əsasında inşa olunub. Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə regiondakı bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin monitorinqi, önləyici analizlər, açılıb-qoşulmalar, tənzimlənmələr və başqa əməliyyatlar avtomatik şəkildə həyata keçirilir.

Xatırladaq ki, 2021-ci ildə işğaldan azad olunmuş ərazilərdə 13 enerji obyekti tikilib və yenidən qurulub. Prezidentin iştirakı ilə Laçındakı "Güləbird" SES, "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su-Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasında işlər tamamlanıb. Azad olunmuş ərazilərdə 110/35/10 kV-luq 9 rəqəmsal yarımstansiya tikilib. Mayın 12-də "Şuşa", iyunun 14-də "Füzuli" və "Şükürbəyli", avqustun 16-da "Kəlbəcər", oktyabrın 4-də "Cəbrayıl", oktyabrın 20-də "Zəngilan", oktyabrın 25-də "Qubadlı" yarımstansiyaları dövlət başçısının iştirakı ilə açılıb. Bu günlərdə isə onların sırasına artıq "Ağdam-1", "Ağdam-2" yarımstansiyaları, "Qarabağ" Regional Rəqəmsal İdarəetmə Mərkəzi də daxil olub.

Bunlar Qarabağda və Şərqi Zəngəzurda görülən işlərin yalnız bir qismidir. Bərpa-quruculuq işləri getdikcə geniş vüsət alır və bu yerlərin həqiqətən də cənnətə çevriləcəyi gün uzaqda deyil. Çünki Prezidentimizin dediyi kimi: "Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Narkomanlığa qarşı mübarizədə ailələrin rolu əvəzsizdir

Narkomaniya "ağ ölüm"dür, həyatdan üz çevirməkdir. "Narkomaniya" və "ölüm" sözləri bu gün insanların təsəvvüründə sinonimə çevrilib. Bu bəlaya qarşı mübarizə aparmaq lazım olduğu qədər də asan deyil. Hər şeyin gizlində, inanılmaz adamların ailəsində və yaxınlarında baş verdiyindən təəccübünü gizlədə bilmirsən.



İki ildən artıqdır ki, COVID -19 pandemiyası ilə ölüm-qalım savaşında olan ölkəmizdə narkomaniyanın yeniyetmələr arasında geniş yayılması inkarolunmaz faktdır. Hüquq-mühafizə orqanlarının gündəlik məlumatlarından, televiziya görüntülərindən aydın olur ki, narkotik vasitələrin istifadəçilərinə qarşı mütəmadi olaraq inzibati tədbirlər həyata keçirilir. Ekspertlərin fikrincə, dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların, bu sosial bəladan məlumatlı olan ailələrin və cəmiyyət üzvlərinin bu işdə mübarizliyi, fəallığı mütləq şəkildə gərəklidir.

Psixiatr-həkim Şəfa Cavadova bildirir ki, narkomaniya gec-tez insanlarda əsəbi pozuntuya, müəyyən keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkomaniyaya qurşanmış şəxslərdə bir çox xarakterik dəyişikliklər baş verir. Onlar çox vaxt dəyişkən əhvali-ruhiyyədə olur, gözlənilməz davranışlar edir, depressiya və yuxululuqdan ayılmırlar, beyin isə daim dumanlı olur. Belə şəxslərin fiziki görünüşlərində ağır sima, gözlərin qızarması, çəkinin azalması və arıqlama, fikirli olmaları və iradəsizlik müşahidə olunur. Müayinələrdən məlum olur ki, narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni şprisdən təkrar istifadə edildiyindən narkomanlar arasında QİÇS və başqa xəstəliklərə tutulanlar daha çox olur. Narkotik maddə alverçiləri heroin və kokaini yuyucu toz və ya şəkər tozu qatıb satırlar, ona görə də narkomanda şəkər diabeti daha tez inkişaf edir. Əgər heç bir qarışığı olmayan narkotik maddə qəbul olunarsa, zəhərin güclü təsirindən o saat həmin adam ölə bilər. Həyatda neçəsinin bu yolla dünyasını dəyişdiyinin şahidi olmuşuq. Ən dəhşətlisi odur ki, bir neçə dəqiqə ərzində baş-beyin zədələnir, insanın psixikası pozulur və bununla, kənardan baxanda sağlam və pəhləvan cüssəli gəncdə tədricən şikəstlik əmələ gəlir. Belə halda adam düşünmək, hərəkət etmək, reaksiya vermək qabiliyyətini itirir, danışmaq və müxtəlif əşyalardan istifadə imkanından məhrum olur.

Bütün bəlaları ilə gənclərin həyat tərzinə, ailə-məişət davranışlarına başucalığı gətirməyən narkomaniyaya və narkobiznesə qarşı mübarizədə valideynlər hamıdan diqqətli olmalıdırlar. Çünki hər bir valideyn uşağının böyüdükcə xarakterində və davranışında olan qeyri-adiliyi dərhal bilmək, duymaq imkanına malikdir. Ata, ana övladlarının yetkinlik dövrünün məşğuliyyətinə, kimlərlə otub-durmasına, boş vaxtlarını necə keçirməsinə, evdən məktəbə, instituta, dostları ilə əylənməyə nə vaxt gedib, nə vaxt qayıtmasına nəzarət etməlidirlər. Təcrübədə görmüşük, elə məşhur və ictimaiyyətdə kifayət qədər tanınmış valideynlər uşaqlarını müayinə və müalicə üçün peşman-peşman müraciət edirlər. Bu valideynlər həkimin təəccübünü görəndə - vallah dünəndə-srağagündə bilmişik, tək oğul övladımdı, əlimdən gedir, kömək eləyin, - deyə ümidlərini həkimə və müalicəyə bağlayırlar, Belə valideynlər vaxtında uşaqlarını nəzarətsiz buraxmasaydılar, övladına verdikləri pulu nəyə sərf etdiklərini bilsəydilər, bir sözlə, valideyn nəzarəti funksiyasına lazımınca riayət etsəydilər, uşaqlarının gizli əməllərindən vaxtında xəbərdar olardılar. Təcrübə göstərir ki, narkomanların yalnız 2-3 faizini müalicə etmək mümkün olur. Odur ki, vaxtında bu xəstəliyin qarşısını almaq daha asandır. Buna görə də gənclərimizin narkomaniyaya mübtəla olmaması üçün ata, ana, qohum-qardaş, hətta ətraf qonşular da əllərindən gələni etməlidirlər.

Təqaüdçü, Bakı şəhər sakini İlham Məmmədov uzun müddət prokurorluq orqanlarında çalışmış şəxs olaraq bildirir ki, hüquq-mühafizə orqanları bu gün narkomaniya və onun satışı ilə məşğul olanlara qarşı çox ciddi mübarizə aparır. Təcrübə göstərir ki, narkomaniya ilə oğurluq, soyğunçuluq, qarət, adam öldürmə kimi cinayətlərin sıx əlaqəsi mövcuddur. Təəccüblüsü odur ki, azyaşlılar arasında bu bəlaya tutulanların sayı artıb. Gizli deyil ki, narkotik aludəçiləri cəmi beş-yeddi ildən sonra həyatla vidalaşır, planetimizdə hər iyirmi dəqiqədə narkotiklə qidalanan bir gəncin ömrünə son qoyulur. Yeniyetmə narkomanların yaşı 17-dən 11-12-ə düşüb, hətta məktəbli oğlan və qızların da istifadəçi olduğunu tez-tez eşidirik. Buna görədir ki, yetkinlik yaşına çatmayanlar arasında narkotikdən ölüm halları artmaqdadır. Belə narkomanlar bəzən 30 yaş həddinə çatmırlar. Bütün bunlara səbəb isə, ilk növbədə, valideynlərin övladlarını nəzarətsiz buraxmasıdır. Ailədə uşağın hər sözünə inanmaqla, istədiyinə "hə" deməklə valideynin özündən xəbərsiz övladının gizli əməllərlə məşğul olmasına imkan yaradır. Çoxumuz gənclərin bu bəladan tez bir zamanda müalicə olunaraq sağlam həyata qayıtmalarının, bir çoxunun təhsilini və işini itirdiyinin, ailədə yaratdığı faciələrin, özünü və ailə üzvlərini pis vəziyyətdə qoyduqlarının, gənc yaşında həyatla vidalaşdıqlarının şahidi olmuşuq. Şəhərdə, rayonda, kənddə valideyn səhər işə gedib, axşam gəlirsə, ailədə olan yeniyetmə, istər oğlan olsun, istərsə də qız, onların boş vaxtları ata, ana tərəfindən mütləq nəzarətdə olmalıdır.

Zərərli vərdişlərin, xüsusilə narkomaniyanın profilaktikasında ən səmərəli vasitə gənclərin asudə vaxtının düzgün təşkilidir. Məmnunluq doğuran odur ki, indi ölkəmizdə şəhərlərdə olduğu kimi, bölgələrdə də gənclərin asudə vaxtının səmərəli keçməsi üçün müəyyən şərait yaradılıb. Bu prosesdə idmanın əhəmiyyəti böyükdür. Gənclərimizin asudə vaxtlarının səmərəli təşkili məqsədilə dövlət başçısı İlham Əliyevin tapşırığı ilə respublikamızın əksər bölgələrində Olimpiya İdman kompleksləri inşa olunmuş, idman zalları və meydançalar yaradılmış və yenidən qurulmuş, gənclərə sosial xidmət göstərən "Gənclər Evləri" tikilərək onların istifadəsinə verilmişdir.

Görünən odur ki, gənclərin sağlamlığını və həyatını ciddi təhlükə altına alan, əxlaqi və mənəvi dəyərləri sarsıdan, insanlığa xələl gətirən, cəmiyyətin harmoniyasını pozan, sosial-iqtisadi tərəqqini ləngidən, bir sözlə, həyatı iflic edən narkomaniyaya qaşı mübarizədə hər kəsin iştirakı, xüsusilə, ailələrin rolu əvəzsizdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Astara və Lerik meşələrində ağacları kütləvi şəkildə kəsən dəstə üzvlərinə qarşı əməliyyat keçirilib

Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları ölkə ərazisində meşə massivlərində ağacların qanunsuz kəsilməsi və emal edilməsi ilə məşğul olan daha bir mütəşəkkil dəstənin üzvlərinin saxlanılması istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Xidmətinin mütəxəssislərinin iştirakı ilə əməliyyat keçiriblər.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş İdarəyə Astara və Lerik rayonları ərazisində qiymətli ağac növlərinin qanunsuz olaraq kütləvi şəkildə kəsilməsi barədə əməliyyat məlumatları daxil olub. Məlumatlar Baş İdarədə nəzarətə götürülməklə hərtərəfli araşdırılıb, həmin ərazilərdə palıd və fıstıq ağaclarının kəsildiyi müəyyən edilib.

Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində həmin ağacların Astara rayon sakinləri Sərdar Gənciyevin və Sərhad Eynullayevin başçılıq etdiyi mütəşəkkil dəstənin üzvləri tərəfindən kəsildiyi məlum olub. Baş İdarənin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində adları çəkilən şəxslər və onlara ağacların kəsilməsində yaxından kömək edən dəstənin digər üzvləri Fərman Fərziyev, Ayəddin Novruzov, Nurlan Cövziyev, qohumu Surxay Cövziyev, Rahid Gənciyev və Nail Zəbiyev saxlanılıblar.

Dəstə üzvlərinin qanunsuz əməlləri, onların ağacları kəsməsi və satması təkzibedilməz faktlarla sübuta yetirilib. Araşdırmalar zamanı məlum olub ki, saxlanılan şəxslər ağacları kəsərək dəstə üzvü Fərman Fərziyevin həyətində emal edəndən sonra satışını həyata keçiriblər. Dəstə üzvlərinin ağac emalı sexlərinə qanunsuz olaraq satdıqları çoxlu sayda ağacın və onların oduncaqlarının yeri də müəyyən edilib. Ekspertlərin verdiyi rəyə əsasən, dəstə üzvləri tərəfindən yaş halda kəsilən ağaclardan bəzilərinin yaşının 100-150 il olduğu müəyyənləşdirilib.

Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Hazırda həmin faktların tam, hərtərəfli araşdırılması, eləcə də ağacların kəsilməsində iştirak edən dəstənin digər üzvlərinin saxlanılması istiqamətində zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar prokurorluq və daxili işlər orqanlarının əməkdaşları üçün təşkil edilmiş kursa yekun vurulub

Azərbaycan Respublikasında sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən olunub.

Hazırda bütün sahələrdə olduğu kimi, narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində də ardıcıl və məqsədyönlü addımlar atılır. Bunun üçün ölkədə müvafiq normativ hüquqi baza formalaşdırılıb, təsisatlar yaradılıb və milli proqramlar hazırlanıb həyata keçirilib. Son dərəcə vacib olan bu sahədə hüquq-mühafizə orqanları əməkdaşlarının peşə vərdişlərinin daha da inkişaf etdirilməsi prioritet istiqamətlərdəndir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla bağlı Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən təşkil edilən "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin tövsifinin, habelə bu qəbildən olan işlərin istintaqının hüquqi (maddi, prosessual) əsasları və qaydaları" mövzusunda təlim kursu uğurla yekunlaşdırılıb.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin aktuallığı və praktiki əhəmiyyəti nəzərə alınaraq, Baş Prokurorluqla Daxili İşlər Nazirliyinin səmərəli əməkdaşlığı çərçivəsində əldə edilmiş razılığa əsasən, təlimdə prokurorluq işçiləri ilə yanaşı, daxili işlər orqanlarının əməkdaşları da iştirak ediblər.

Tədbirə təlimçi qismində Baş Prokurorluğun müvafiq struktur qurumlarının təcrübəli nümayəndələri, dinləyici qismində isə 21 rayonda (şəhərdə) xidmət edən 69-u prokurorluq və 40-ı daxili işlər orqanları əməkdaşı olmaqla 109 nəfər cəlb olunub.

Kurs üzrə tədris tədbirləri carı il fevralın 7-dən 11-dək dinləyiciləri iş yerindən ayırmadan, internet üzərindən "ZOOM" proqramı vasitəsilə distant formada və canlı vaxt rejimində həyata keçirilib. Təlimlərdə təhlil materiallarından və müasir informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə olunub.

Kurs çərçivəsində dinləyicilərə "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı milli mübarizə strategiyası, bu sahədə olan problemlərin mahiyyəti və aktuallığı", "Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində Avropa Məhkəməsinin presedent hüququ", "Xarici ölkələrin narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi", "Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma cinayətlərinin tövsifi məsələləri və istintaq metodikası", "Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə və ya qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə cinayətlərinin tövsifi məsələləri və istintaq metodikası", "Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin aşkar edilməsi və açılması ilə əlaqədar əməliyyat-axtarış tədbirlərin növləri, xüsusiyyətləri, sənədləşdirilməsi qaydası, əməliyyat-axtarış fəaliyyəti nəticəsində toplanmış materialların sübutetmədə istifadəsi", "Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının ölkəyə qanunsuz daxil olmasına və tranzitinə qarşı mübarizənin aktual problemləri, onların həlli yolları", "Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə yol verilən tipik qanun pozuntuları, bu qəbildən olan cinayət işləri üzrə baxış, axtarış, şəxsi axtarış, götürmə, habelə digər istintaq hərəkətlərinin icrasının aktual problemləri" və sair mövzular üzrə "PowerPoint" proqramı vasitəsilə hazırlanmış təqdimatların müşayiəti ilə məşğələlər tədris olunub.

Dinləyicilər məşğələlər zamanı tədris olunan materiallara maraq göstərib, təlimçilərlə aktiv ünsiyyətdə olublar. Tədris edilmiş əksər məşğələlərin elektron mətni onlara təqdim edilib. Kursun yekununda aparılan müzakirələr zamanı dinləyicilər əldə etdikləri bilik və bacarıqlardan məmnunluqlarını bildiriblər.

AZƏRBAYCAN www.azerbaijan-news.az

Günün idman manşeti

# “Qarabağ” sədaları Fransada

## Ağdam klubu bu axşam “Marsel”lə tarixi oyuna çıxacaq

**UEFA Konfrans Liqası**

**Pley-off, ilk oyun,**
**18 fevral, saat 00:00**

“Marsel”(Fransa) - “Qarabağ” (Azərbaycan)
*Baş hakim:* Nikola Dabanoviç (Monteneqro)
*Marsel, Velodrom Stadionu*

**Bu gün dünya futbolsevərlərinin diqqəti Fransaya yönələcək. UEFA Konfrans Liqasının pley-off mərhələsinin ilk qarşılaşmasında Ağdamın “Qarabağ” klubu səfərdə “Marsel”in qonağı olacaq.**




Tribunalarda anşlaq olacaq, ekran qarşısında milyonların qəlbi “Qarabağ”la döyünəcək.

Matç öncəsi Marsel şəhərində təhlükəsizlik tədbirləri gücləndiriləcək. Ola biləcək hər hansı insidentlərin qarşısını almaq üçün Azərbaycan təmsilçisinin azarkeşləri üçün fəaliyyət göstərəcək xüsusi bilet satışı məntəqəsi ciddi mühafizə olunacaq. Matçın keçiriləcəyi “Velodrom” stadionunda yerli və qonaq komandanın fanatları arasında boş tribunalar saxlanılacaq ki, bu da “bufer zona” yaratmaq məqsədi daşıyır. Stadionun üzərində dron uçuşuna və fanatların priotexniki vasitələrdən istifadəsinə icazə verilməyəcək.

Təhlükəsizlik idarəsinin və bir neçə polis bölməsinin əməkdaşları stadionun ətrafında, daxilində, ictimai nəqliyyatda və şəhərin mərkəzində yerləşdiriləcək. Bu addım hər hansı qanunsuz kütləvi toplaşmaların qarşısını almaq və problem yaranarsa, dərhal müdaxilə etmək məqsədilə atılıb. Pilotsuz uçuş aparatları ilə ümumi vəziyyətə nəzarət olunacaq.

İndi isə keçək qarşılaşmada “Qarabağ”ı nələr gözləyə bilər məqamının təhlilinə. Ağdam təmsilçisini çox çətin səfər matçı gözləyir. Çox güman ki, 4-5-1 oyun formatı ilə meydançaya çıxacağı gözlənilən Ağdam klubu müdafiənin arxasına atılan toplarda və standart vəziyyətlərdə çox diqqətli olmalıdır. Xüsusilə Fransa təmsilçisində cinahlarda oynayan futbolçuların çox sürətli keçidləri fonunda komandamız müdafiə xəttində daha diqqətli olmalıdır. “Qarabağ”da sağ və sol cinah müdafiəçilər rəqibin hücumları zamanı mərkəzə doğru çəkilərək boş zona buraxmamalıdır.

Fransa çempionatında 2-ci pillədə qərarlaşan və futbolçularının ümumi dəyəri 250 milyon avrodan çox olan “Marsel” doğma meydan amilini də nəzərə alaraq ilk yarım saat ərzində oyunu meydançanın “Qarabağ”a aid hissəsində keçirərək daha erkən qol vurmağa çalışacaq ki, qarşılaşmaya nəzarəti tam ələ almaq imkanı yaransın. Bunun qarşısını almaq üçün isə mütləq həm toplu, həm də topsuz oyunda hazırlıqlı, ötürmələrdə daha sürətli olmaq lazımdır.

Belə qənaətə gəlmək olar ki, ilk dəqiqələrdə Ağdam təmsilçisi topu meydan sahiblərinə verərək daha çox qaçmağa çalışacaq. Daha yüksək fiziki hazırlığın tələb olunduğu oyun planı fonunda komandamız rəqibə boş zona yaratmamağa çalışmalıdır. Bu oyun planı işə düşərsə, komandamız rəqibə qarşı üstünlük əldə edə bilər. Abdulla Zubirin tez-tez cinahları dəyişməsi İbrahima Vadjinin topsuz oyunlarda rəqib müdafiəçiləri üzərinə çəkməsi “Marsel”in arxa xəttində balansın pozulmasına səbəb yaradar.

Müdafiənin mərkəzində daha sayıq görünən Fransa klubu cinahlarda heç də uğurlu deyil. Çünki matçın müəyyən hissələrində bəzən sağ və ya sol cinah müdafiəçiləri hücuma qoşularkən itirilən toplardan sonra geriyə qayıtmaqda ciddi problem yaşayırlar. Belə ki, hücumda çoxalarkən, müdafiə olunmaqda say baxımından geri qalan “Marsel”i komandamız səbirli, həyəcana yol vermədən oynayaraq istədiyi nəticəni qazana bilər.

Necə deyərlər, inanmaq uğurun yarısıdır. Səfərdə alınacaq sərfəli nəticə bir həftə sonra Bakıda növbəti tarixi nəticəyə imza atmaq üçün çox gözəl imkan yaradar. Niyə də yox?!

Vurduğun qol olsun, “Qarabağ”!

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Azərbaycan hava limanları yanvarda 300 minə yaxın sərnişinə xidmət göstərib

Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətinin məlumatına görə, 2022-ci ilin yanvar ayında Azərbaycanın beynəlxalq hava limanlarının sərnişin axını 290 min nəfər təşkil edib.



Bu göstərici 2021-ci ilin statistikasını dörd dəfədən çox üstələmişdir. COVID-19 pandemiyası səbəbindən tətbiq edilən məhdudiyyətlərin mərhələli şəkildə yumşaldılması, həmçinin Azərbaycanın hava sərhədlərini açdığı ölkələrin sayının artması müsbət tendensiyaya səbəb oldu. Lakin sərnişin axını pandemiyadan əvvəl, 2020-ci ilin yanvar ayının nəticəsindən aşağı olaraq qalır və qeyd edilən dövrdə 395 min nəfər təşkil edib.

Ümumi sərnişin sayından 233 min sərnişin (ümumi sərnişin axınının 80 faizi) Heydər Əliyev Beynəlxalq Aeroportunun payına düşüb. Bakı hava limanının baza aviadaşıyıcıları - AZAL və “Buta Airways” 91 min və 28 min sərnişin daşıyıb ki, bu da müvafiq olaraq sərnişin axınının 39,1 faizini və 12,1 faizini təşkil edir.

Ötən ay 23 xarici aviaşirkət Bakı hava limanına uçuşlar həyata keçirib.

Aviadaşıyıcılar Azərbaycandan Türkiyə, Rusiya, BƏƏ, Gürcüstan, Ukrayna, Belarus, Qətər, İsrail, Almaniya, Böyük Britaniya, Küveyt, Bəhreyn və Səudiyyə Ərəbistanına uçuşlar həyata keçirir.

Heydər Əliyev Beynəlxalq Aeroportu (IATA: GYD) sərnişin və yük daşımalarının həcmi, uçuş-enmə əməliyyatları, aerovağzal kompleksinin sahəsi və yük kompleksinin tutumu baxımından Azərbaycanın və regionun ən böyük hava limanıdır.

2021-ci ildə Heydər Əliyev Beynəlxalq Aeroportu “Skytrax” beynəlxalq hava nəqliyyatı reytinq agentliyi tərəfindən COVID-19 pandemiyası dövründə epidemioloji təhlükəsizlik üzrə ən yüksək “5 ulduzlu” reytinqə layiq görüldü.

Bu, sərnişinlərini və əməkdaşlarını koronavirus infeksiyasının yayılmasından qorumaq üçün Heydər Əliyev Beynəlxalq Aeroportunda tətbiq olunan COVID-19 tədbirlərinin səmərəliliyinin ən yüksək qiymətləndirilməsidir.


## Bakı Şəhər Əsaslı Tikinti və Təmir MMC

### *açıq tender elan edir*

**LOT- 1.** Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların əsaslı təmirinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdır. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05).

**LOT 1 - 2000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra azı 90 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri **01 aprel 2022-ci il saat 12:00-a** kimi, tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **11 aprel 2022-ci il saat 12:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **12 aprel 2022-ci il saat 12:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Q SC

### struktur idarələrinə tələb olunan taxta materialların satın alınması

### *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 02 mart 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində və 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

### müxtəlif mal-materialların satın alınması məqsədilə

### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 22 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Hüseynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.**

***Tender komissiyası***



## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

### Xəzər Dəniz Neft Donanması gəmiləri üçün müxtəlif elektrik mallarının satın alınması məqsədilə

### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 23 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Hüseynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.**

***Tender komissiyası***



## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

### XDND və DND-nin gəmilərinə nasoslar və mexaniki kipləyicilərin satın alınması

### *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 23 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Hüseynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***


# Ötən il ölkə əhalisinin sayı 0,4 faiz artıb

Ötən il ərzində ölkə əhalisinin sayı 37 min 233 nəfər və ya 0,4 faiz artaraq 2022-ci il yanvar ayının 1-i vəziyyətinə 10 milyon 156 min 366 nəfərə çatıb. Əhalinin 53 faizini şəhər, 47 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edib.

Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, cari ilin əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 22,7 faizi Bakı şəhərində, 9,5 faizi Lənkəran-Astara, 8,9 faizi Qarabağ, 7,3 faizi Mərkəzi Aran, 6,8 faizi Qazax-Tovuz, 6,2 faizi Şəki-Zaqatala, 6 faizi Gəncə-Daşkəsən, 5,7 faizi Abşeron-Xızı, 5,5 faizi Quba-Xaçmaz, 5,2 faizi Mil-Muğan, 5 faizi Şirvan-Salyan, 3,4 faizi Şərqi Zəngəzur, 3,2 faizi Dağlıq Şirvan iqtisadi rayonlarında yaşayıb. Ölkə üzrə bir kvadratkilometrə düşən əhalinin sayı 117 nəfər təşkil edib. Həmin göstərici Bakı şəhərində (1076 nəfər), Lənkəran-Astara (158 nəfər), Abşeron-Xızı (155 nəfər) iqtisadi rayonlarında ölkə səviyyəsindən yüksək olub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsinin rəhbərliyi və əməkdaşları İşlər İdarəsinin şöbə müdiri Fayıq Əliyevə anası

**HÜRRİYYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildiriir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və şöbənin əməkdaşları İqtisadi qanunvericilik şöbəsi müdirinin müavini Rövşən Muradova anası

**İRADƏ MURADOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Hesablama Palatası Aparatının rəhbəri Vüqar İbrahimova anası

**RÜBABƏ İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi Kadrlar idarəsinin baş məsləhətçisi Tahirə Məmmədovaya atası

**SAMİR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyev və universitetin kollektivi AMEA-nın müxbir üzvü Şahbaz Muradova həyat yoldaşı

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Hesablama Palatası Aparatının rəhbəri Vüqar İbrahimova anası

**RÜBABƏ İBRAHİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

AMEA İqtisadiyyat İnstitutunun kollektivi institutun şöbə müdiri, AMEA-nın müxbir üzvü, professor Şahbaz Muradova və övladlarına əzizləri

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Hesablama Palatası Aparatının rəhbəri Vüqar İbrahimova anası

**RÜBABƏ İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımova anası

**SİDİQƏ KAZIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımova anası

**SİDİQƏ KAZIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5481
Sifariş 443
Qiyməti 40 qəpik